HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 34 (928) ■ 12 sentyabr 2018 www.vergiler.az Qiyməti: 60 qəp.

# Azərbaycan Prezidentinin Xorvatiyaya rəsmi səfəri

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 5-də Xorvatiya Respublikasına rəsmi səfərə gəlib. Sentyabrın 6-da dövlətimizin başçısının rəsmi qarşılanma mərasimi olub. Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülüb, Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviç dövlətimizin başçısını qarşılayıb.**



Sentyabrın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviç ilə təkbətək görüşü olub. Söhbət zamanı iki ölkə arasında siyasi, iqtisadi, humanitar və digər sahələrdə əlaqələrin uğurla inkişaf etdiyi vurğulanıb, qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Təkbətək görüş başa çatdıqdan sonra hər iki ölkənin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüş keçirilib.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviçin iştirakı ilə Azərbaycan-Xorvatiya sənədlərinin imzalanması mərasimi olub. Daha sonra prezidentlər mətbuata bəyanatlarla çıxış ediblər.

Dövlətimizin başçısını və nümayəndə heyətini bir daha səmimi qəlbdən salamlayan Xorvatiya Prezidenti Kolinda Qrabar-Kitaroviç bu səfərin iki ölkə arasında münasibətlərin daha da yaxşılaşmasına mühüm töhfə verəcəyinə, bütün sahələrdə əməkdaşlıq əlaqələrinin genişləndiriləcəyinə əminliyini ifadə edib: «Biz bu gün əməkdaşlığımızın bir sıra sahələrində mövcud olan böyük potensial haqqında danışdıq. Biz, həmçinin siyasi məsələlər üzrə fikir mübadiləsi apardıq, o cümlədən enerji, iqtisadiyyat, mədəniyyət, elm-texnologiya, təhsil və əlbəttə ki, xalqlarımız arasında birbaşa təmasların inkişafı haqqında danışdıq. Mən bu gün imzalanmış sənədləri vacib hesab edirəm, alqışlayıram və bu, bizim ikitərəfli münasibətlərimizə təkan verəcək».

Azərbaycanı Xorvatiyanın əsl dostu adlandıran xanım Kolinda Qrabar-Kitaroviç ölkəmizlə bütün sahələrdə, o cümlədən müdafiə, iqtisadiyyat, mədəniyyət, kənd təsərrüfatı, sənaye, turizm, əczaçılıq, enerji və digər sahələrdə əməkdaşlıq etməkdə maraqlı olduğunu qeyd edib: «Biz istərdik ki, Azərbaycanın reallaşdırdığı və bir çox ölkələrin ərazisindən keçən qaz boru kəməri layihəsində də iştirak edək. Bildiyiniz kimi, Adriatik dənizinin sahilində bu layihə çərçivəsində boru kəməri çəkilir. Biz, həmçinin, Xorvatiyanın Krk adasında maye qaz terminalının tikintisində maraqlıyıq. Bu, Azərbaycanın enerji bazarlarına çıxışını daha da genişləndirəcək.

O ki qaldı, Avropa İttifaqındakı fəaliyyətimizə, Xorvatiya güclü iradəyə əsaslanaraq Cənub və Mərkəzi Avropa ölkələri ilə Xəzər hövzəsi arasında daha geniş əməkdaşlığın inkişaf etdirilməsinə tərəfdardır. Azərbaycan əslində, bu təşəbbüsü dəstəkləyibdir. Bu təşəbbüsə digər tərəfdaşlar da, maraqlı dövlətlər də qoşula bilər. Bu təşəbbüsdə dünyanın müxtəlif şirkətləri iştirak edə bilər. Buxarestdə 2018-ci ilin sentyabrında bununla bağlı keçiriləcək Zirvə görüşündə hesab edirik ki, mühüm addımlar atılacaq və bu, çox yüksək səviyyədə, siyasi səviyyədə ortaya qoyulan bir iradə olacaqdır. Bu da bizim spesifik dialoqumuzun əsasını təşkil edir.

Mən, eyni zamanda, bildirmək istəyirəm ki, Azərbaycan NATO-nun mühüm tərəfdaşıdır. Sizin NATO-ya verdiyiniz töhfəniz vacibdir. Bildiyiniz kimi, Azərbaycan da bizim ölkə kimi müxtəlif yerlərdə təhlükəsizlik məsələlərinin həllinə, sabitliyin qorunmasına töhfə verir və bunda maraqlıdır. Burada söhbət, xüsusən Avropanın cənub bölgəsindən gedir. Siz, həmçinin Əfqanıstanda aparılan əməliyyatlara da qatılmısınız. Təhlükəsizliyə və sabitliyə verdiyiniz davamlı dəstəyə və töhfəyə görə mən Sizə təşəkkürümü bildirirəm».

> Xorvatiya bütün sahələrdə, o cümlədən müdafiə, iqtisadiyyat, mədəniyyət, kənd təsərrüfatı, sənaye, turizm, enerji və digər sahələrdə Azərbaycanla əməkdaşlıq etmək niyyətindədir

Mətbuata bəyanatla çıxış edən Prezident İlham Əliyev dəvət üçün Xorvatiyanın dövlət başçısına təşəkkürünü bildirib, burada özünü evindəki kimi hiss etdiyini vurğulayıb. Xorvatiya Prezidenti ilə müzakirə olunan bütün məsələlər üzrə qarşılıqlı anlaşma əldə olunduğunu qeyd edən Azərbaycan Prezidenti iki ölkə arasında strateji tərəfdaşlıq əlaqələrinin genişləndiyini diqqətə çatdırıb, əməkdaşlığın gələcək perspektivləri barədə fikirlərini açıqlayıb: «Biz Xorvatiya ilə daha böyük həcmdə ticarət əməliyyatları aparmaq istəyirik. Ticarət dövriyyəsinin nə həcmi, nə də strukturu bizi qane edə bilməz. Hesab edirəm ki, hökumətlərarası komissiya bu məsələ ilə bağlı çox ciddi fəaliyyət göstərəcək. Yaxın zamanlarda həm ticarət dövriyyəsinin artırılması, eyni zamanda, müştərək investisiya layihələri də icra edilə bilər».

Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən «Cənub Qaz Dəhlizi» layihəsinin icrası ilə bağlı məlumat verən dövlətimizin başçısı yaxın iki il ərzində Azərbaycan qazının ilk dəfə olaraq Avropa məkanına çatdırılacağını bəyan edib: «Əlbəttə ki, Xorvatiya ilə bu sahədəki əməkdaşlıq çox önəmlidir. Bakıda dörd il ardıcıllıqla Cənub Qaz Dəhlizinin Məşvərət Şurasının toplantıları keçirilir. Xorvatiya bu toplantılarda yüksək səviyyədə təmsil olunur. Bizim aramızda bu məsələ ilə bağlı memorandum da imzalanmışdır. İon-Adriatik qaz kəmərinin tikintisi ilə bağlı çox əhəmiyyətli danışıqlar aparılmaqdadır».

Çıxışında Avropa İttifaqı-Azərbaycan əlaqələrinə də toxunan Prezident İlham Əliyev bu əməkdaşlığın uğurla inkişaf etdiyini vurğulayıb: «Bu ilin iyul ayında Brüsseldə Avropa İttifaqı ilə Azərbaycan arasında «Tərəfdaşlıq prioritetləri» sənədi imzalanmışdır. Bu, yeni Sazişin imzalanması üçün çox önəmli bir addımdır. Hazırda Avropa İttifaqı və Azərbaycan yeni Saziş üzərində işləyir. İşlər yaxşı gedir və Xorvatiya həmişə bizim Avropa İttifaqı ilə əməkdaşlığımızı dəstəkləmiş və öz dəyərli töhfəsini vermişdir. Avropa İttifaqı ilə bizim əlaqələrimiz bir çox sahələri əhatə edir: siyasi islahatlar, iqtisadi əməkdaşlıq, enerji əməkdaşlığı və nəqliyyat sahəsindəki əməkdaşlıq. Azərbaycan bu sahədə də öz töhfəsini verir.

Keçən ilin oktyabr ayında Bakıda Bakı-Tbilisi-Qars dəmir yolunun rəsmi açılışı olmuşdur. Bu yol nəinki Azərbaycanı Türkiyə ilə birləşdirir, Asiyanı Avropa ilə birləşdirən yeni yoldur, yeni nəqliyyat damarıdır, ən qısa yoldur. Bu yol artıq fəaliyyətdədir. Göndərilən yüklərin həcmi hər gün artır və Azərbaycan Avrasiyanın nəqliyyat xəritəsinə də öz dəyərli töhfəsini vermişdir. Ümid edirəm ki, xorvatiyalı tərəfdaşlarımız bu yoldan da istifadə edə biləcəklər. Çünki bu, nəqliyyat və iqtisadi sahələrdə çox gözəl layihədir.

Azərbaycanın NATO ilə əməkdaşlığı yüksək səviyyədədir. Mənim NATO-ya çoxsaylı rəsmi səfərlərim olmuşdur. Yaxın keçmişdə Azərbaycan Əfqanıstanda «Qətiyyətli dəstək» missiyasındakı öz hərbi kontingentinin sayının artırılması ilə bağlı qərar qəbul etmişdir. Artıq 120 azərbaycanlı hərbçi Əfqanıstanda xidmət göstərir. Eyni zamanda, «Qətiyyətli dəstək» missiyasının təmin olunması üçün Azərbaycan öz hava məkanını və nəqliyyat infrastrukturunu təqdim edib. Bu da missiyanın uğurla davam etməsi üçün çox önəmli məsələdir.

Bir sözlə, həm Avratlantik strukturlarla bizim əlaqələrimiz, həm də ikitərəfli müstəvidə aparılan işlər onu göstərir ki, Xorvatiya və Azərbaycan, sözün əsl mənasında, strateji tərəfdaşlardır. Bu gün xanım Prezident qeyd etdiyi kimi, bir çox sahələrdə gələcək əməkdaşlıq haqqında fikir mübadiləsi aparıldı. Əczaçılıq, kənd təsərrüfatı, kənd təsərrüfatı məhsullarının emalı, gəmiqayırma sahələrində bütün istiqamətlər üzrə, əminəm ki, yaxşı nəticələr olacaq. Müvafiq göstərişlər verildi. Əminəm ki, hökumətlərarası müştərək komissiya bütün bu göstərişləri vaxtında və yüksək səviyyədə icra edəcək».

# Yaponiya Azərbaycanla əməkdaşlığın genişləndirilməsində maraqlıdır

**Prezident İlham Əliyev sentyabrın 5-də Yaponiyanın xarici işlər naziri Taro Kononun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**



Azərbaycana səfərindən məmnunluq hissi keçirdiyini deyən yaponiyalı diplomat ölkələrimiz arasında münasibətlərin yaxşı səviyyədə olduğunu qeyd edib və əlaqələrimizin daha da inkişaf etdirilməsinə ümidvar olduğunu bildirib. Taro Kono Yaponiyanın «İtoçu» və «İnpeks» şirkətlərinin uzun illər «Azəri-Çıraq-Günəşli» və Bakı-Tbilisi-Ceyhan layihələrində pay sahibi olduqlarını vurğulayıb və bu əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminliyini ifadə edib. Nazir qeyd edib ki, Yaponiya iki ölkə arasında birbaşa aviareyslərin açılmasında maraqlıdır və bu, turizm sahəsində əlaqələrin inkişafı baxımından böyük əhəmiyyət daşıyır.

Ölkələrimiz arasında ikitərəfli münasibətlərin çox uğurla inkişaf etdiyini deyən dövlətimizin başçısı bu əlaqələrin siyasi, iqtisadi və digər sahələri əhatə etdiyini vurğulayıb. Prezident İlham Əliyev qeyd edib ki, əməkdaşlığımızın gündəliyi çox genişdir və Yaponiyanın xeyli sayda şirkəti Azərbaycanda kontraktor, investor qismində uğurlu fəaliyyət göstərir. Eyni zamanda, dövlətimizin başçısı iki ölkənin biznes dairələri arasında əməkdaşlığın daha da genişləndirilməsi yollarının müəyyən edilməsinin önəmini də diqqətə çatdırıb. Ölkəmizin turizm imkanlarına toxunan Prezident İlham Əliyev Azərbaycana gələn turistlərin sayının ildən-ilə artdığını qeyd edib və respublikamızda turizm infrastrukturunun ən yüksək səviyyədə olduğunu deyib. Dövlətimizin başçısı Yaponiyanın xarici işlər nazirinin ölkəmizə səfərinin ikitərəfli münasibətlərimizin inkişafına töhfə verəcəyinə əminliyini ifadə edib.

Söhbət zamanı kadr hazırlığı məsələlərində təcrübə mübadiləsinin önəmi vurğulanıb, iqtisadi sahədə əməkdaşlığımızın genişləndirilməsində investisiyaların təşviqinin və qorunmasının əhəmiyyətindən danışılıb, ölkələrimiz arasında iqtisadi əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən kənd təsərrüfatı, turizm və digər sahələrdə genişləndirilməsinin böyük potensiala malik olduğu qeyd edilib.

## Rəsmi xronika

- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xorvatiya Respublikasına rəsmi səfəri çərçivəsində bu ölkənin Baş naziri Andrey Plenkoviç ilə görüşüb. Görüşdə ölkələrimiz arasında strateji tərəfdaşlıq münasibətlərinin inkişaf etdiyi, siyasi, iqtisadi, enerji və digər sahələrdə uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirilib. İqtisadi sahədə əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğu vurğulanıb. Həmçinin kənd təsərrüfatı, əczaçılıq, nəqliyyat və digər sahələrdə əməkdaşlığın perspektivləri müzakirə olunub. Söhbət zamanı ölkəmizin Avropa İttifaqı ilə uğurlu əməkdaşlıq etdiyi bildirilib, Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki rolu, Cənub Qaz Dəhlizinin əhəmiyyəti qeyd olunub, qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Sonra Azərbaycan Prezidenti və Xorvatiyanın Baş naziri birgə işçi nahar ediblər.

- Prezident İlham Əliyev Zaqrebdə Xorvatiya Respublikası parlamentinin sədri Qordan Yandrokoviç ilə görüşüb. Görüşdə Azərbaycan Prezidentinin Xorvatiyaya rəsmi səfərinin uğurlu keçdiyi, səfər çərçivəsində səmərəli müzakirələrin aparıldığı qeyd edilib. Azərbaycan ilə Xorvatiya arasında strateji tərəfdaşlıq əlaqələrinin inkişaf etdiyi, siyasi, iqtisadi, enerji və digər sahələrdə uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirilib, ticarət dövriyyəsinin artırılmasının vacibliyi qeyd olunub. Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki rolu, Cənub Qaz Dəhlizinin əhəmiyyəti xüsusi vurğulanıb. Yüksək səviyyəli qarşılıqlı səfərlərin əlaqələrimizin genişləndirilməsində xüsusi rolunun olduğu bildirilib. Azərbaycanın Əfqanıstanda «Qətiyyətli dəstək» missiyasında iştirakının önəmi qeyd olunub, ölkəmizin Avropa İttifaqı ilə uğurlu əməkdaşlıq etdiyi bildirilib. Azərbaycan ilə Xorvatiya arasında nəqliyyat, əczaçılıq, turizm sahələrində əməkdaşlıq üçün yaxşı imkanların olduğu vurğulanıb.
Söhbət zamanı parlamentlərarası əlaqələrin genişləndirilməsinin vacibliyi qeyd edilib, dostluq qruplarının bu işə mühüm töhfə verə biləcəyi bildirilib və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Bakıda «Azərbaycan Rəqabətlilik Forumu 2018» keçirilib — səh. 2

Vergilər Nazirliyində müasir rəqəmsal texnologiyalar tətbiq ediləcək — səh. 2

Elektron ticarətin vergiyə cəlb olunması — səh. 3

Energetik içkilərə vergi tətbiq edilməlidirmi? — səh. 5

# Bakıda «Azərbaycan Rəqabətlilik Forumu 2018» keçirilib

**ABŞ-ın Beynəlxalq Anlaşma üçün İşgüzar Şurası (BCIU) və İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) birgə təşkilatçılığı ilə sentyabrın 7-də Bakıda «Azərbaycan Rəqabətlilik Forumu 2018» keçirilib.**

AZƏRTAC xəbər verir ki, forumun moderatoru, BCIU-nun vitse-prezidenti Cefri Donald Azərbaycanda belə bir miqyasda tədbirin keçirilməsini beynəlxalq ticari və işgüzar əlaqələrin genişləndirilməsi baxımından əhəmiyyətli olduğunu bildirib.

Forumda çıxış edən Baş nazirin birinci müavini Yaqub Eyyubov qeyd edib ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin möhkəm siyasi iradəsi sayəsində müstəqilliyimizin ilk illərində Azərbaycan Respublikasında mühüm iqtisadi islahatlar həyata keçirilib, xarici investisiyaların ölkəmizə cəlb edilməsi üçün möhkəm təməl yaradılıb: «Azərbaycan Prezidenti İlham Əliyevin uzaqgörən iqtisadi siyasəti sayəsində iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft ixracının artırılması üzrə kompleks tədbirlər görülüb, dövlət-sahibkar münasibətlərinin inkişaf etdirilməsi, biznes və investisiya mühitinin yaxşılaşdırılması, qeyri-neft sektorunun stimullaşdırılması, kiçik və orta sahibkarlığın dəstəklənməsi məsələləri diqqət mərkəzində saxlanılıb. Təsadüfi deyil ki, Avropa İttifaqının «PricewaterhouseCoopers» («PwC») və «Deloitte» şirkətlərinin Azərbaycanda apardığı son sorğuların nəticələrinə görə, ölkədə biznes mühitinin daha da təkmilləşdirilməsi və investorların gözləntilərinin yaxşılaşması müşahidə edilir. Xüsusən də xarici investorların Azərbaycanda aparılan iqtisadi siyasətə inamı və etimadı güclüdür. Çünki investorlar üçün vacib olan iqtisadiyyatın proqnozlaşdırma səviyyəsi yüksəlir. Bakı-Tbilisi-Qars dəmir yolunun işə salınması, «Yeni Əsrin Müqaviləsi»nin imzalanması və Cənub Qaz Dəhlizinin fəaliyyətə başlaması ilə ölkəmizə milyardlarla dollar həcmində yeni sərmayələr yatırılacaq.

«Ölkə iqtisadiyyatına həm daxili, həm də xarici mənbələr hesabına irihəcmli investisiyalar qoyulub. Belə ki, 2003-2017-ci illərdə ölkə iqtisadiyyatına bütün mənbələrdən 236 milyard ABŞ dolları dəyərində investisiya yatırılıb. Bunun 118 milyard dolları, yəni 50 faizi xarici investisiyaların payına düşür. Azərbaycan hər nəfərə düşən xarici investisiya həcminə görə regionda lider dövlətdir. Azərbaycan bu dövr ərzində investisiya ixrac edən ölkəyə çevrilib. Xaricə yönəldilmiş birbaşa investisiyaların həcmi 19 milyard dollardan çox olub», - deyə Yaqub Eyyubov bildirib.

Baş nazirin birinci müavini deyib ki, Azərbaycan xarici sərməyə cəlb etməklə, həm də Avrasiyanın enerji və nəqliyyat xəritəsinin yenidən formalaşmasında yaxından iştirak edir: «Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinin kəsişməsi Azərbaycanı nəqliyyat-logistika qovşağına çevirib. Belə şaxələndirilmiş infrastruktur imkan verir ki, ölkədə ixracyönümlü və rəqabətqabiliyyətli iqtisadiyyat inkişaf etsin. Ələt qəsəbəsində Azad iqtisadi zonanın Cənubi Qafqaz, Mərkəzi Asiya, İran, Cənubi Rusiya və Türkiyənin daxil olduğu 130 milyon insanın yaşadığı bir bazara xidmət göstərməsi planlaşdırılır. Eyni zamanda, Azərbaycan özünün zəngin karbohidrogen ehtiyatları ilə regionun enerji təhlükəsizliyində aparıcı rolunu oynayır».

Yaqub Eyyubov qeyd edib: «Həyata keçirilən kompleks tədbirlər nəticəsində son 15 ildə Azərbaycan iqtisadiyyatında yüksək inkişaf templəri müşahidə edilib. Bu dövrdə ÜDM real ifadədə 3,6 dəfə artıb, özəl sektorun ÜDM-də xüsusi çəkisi 2017-ci ildə 83,8 faizə çatıb. Qeyri-neft sektorunun son 15 ildə orta illik artım tempi 8,1 faiz olub. Qeyri-neft sektorunun bütün alt sahələrində genişmiqyaslı inkişaf əldə olunub. Belə ki, 2003-2017-ci illərdə qeyri-neft sənayesində 2,6 dəfə, kənd təsərrüfatında 1,8 dəfə, tikintidə 4,9 dəfə, ticarətdə 4,5 dəfə, turizm sektorunda 20,2 dəfə, nəqliyyat sektorunda 3,1 dəfə və rabitə sektorunda 14,5 dəfə iqtisadi artım qeydə alınıb. 2015-ci ildən etibarən Azərbaycan iqtisadiyyatı keyfiyyətcə də yeni mərhələyə qədəm qoyub. Yeni iqtisadi şəraitə uyğun həyata keçirilən rasional makroiqtisadi siyasət, aparılan dərin islahatlar nəticəsində ölkə iqtisadiyyatındakı durğunluq qısa müddətə aradan qalxıb. 2016-cı ildə ÜDM-in 3,1 faiz enməsinə baxmayaraq, 2017-ci ilin yekunları üzrə artım qeydə alınıb. 2017-ci ildə qeyri-neft sektorunda isə 2,7 faizlik iqtisadi artım müşahidə edilib. Məşğulluqda qeyri-neft sektorunun payı 2003-cü ildə 68 faizdən 2018-ci ildə 73 faizə çatıb. Bu müddətdə Azərbaycanda fəaliyyət göstərən sahibkarlıq subyektlərinin sayı 4,2 dəfə, hüquqi şəxslərin sayı 1,9 dəfə, kiçik müəssisələrin sayı 2 dəfə, fərdi sahibkarların sayı isə 5 dəfə artıb».

Baş nazirin birinci müavini bildirib ki, aparılan iqtisadi islahatların ən mühüm istiqamətlərindən biri də investisiyaların təşviqi ilə bağlı həyata keçirilən tədbirlərdir. İnvestisiya təşviqi sənədi almış hüquqi şəxslərin və sahibkarların mənfəəti və gəlirinin 50 faizi vergidən azad edilib, habelə onlar əmlak və torpaq vergisindən, idxal etdikləri texnika, texnoloji avadanlıq, qurğular üzrə idxalda ƏDV-dən və idxal rüsumlarından 7 il müddətinə azad olunub: «Ölkədə xarici investisiyaların qorunması istiqamətində də kompleks tədbirlər həyata keçirilib. Yeni təşkil olunmuş sənaye parkları və məhəllələrində aqroparklar və texnoparklarda nəinki yerli biznes, eləcə də xarici sərmayələr üçün əlverişli biznes mühiti və infrastruktur imkanları yaradılıb. Xarici investorların Azərbaycana investisiya qoyması üçün hər cür şərait yaradılır. Qanunvericilik beynəlxalq tələblərə uyğunlaşdırılıb, ölkədə biznes sistemi asanlaşdırılıb, miqrasiya ilə bağlı köklü islahatlar aparılıb, «Azexport» portalı və Rəqəmsal Ticarət Qovşağı yaradılıb, xarici iş adamları üçün elektron rezident olmaq imkanı verilib və Ələt Azad İqtisadi Zonası yaradılması istiqamətində mühüm addımlar atılıb».

Yaqub Eyyubov vurğulayıb ki, Azərbaycan Prezidentinin 2016-cı il 13 iyul tarixli Sərəncamı ilə sahibkarlıq sahəsində son illər ərzində nail olunmuş sürətli inkişafın davamlığının təmin edilməsi və rəqabət qabiliyyətinin möhkəmləndirilməsi, beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyinin daha da yaxşılaşdırılması məqsədilə Komissiyanın yaradılması və müvafiq Tədbirlər Planının təsdiqlənməsi böyük əhəmiyyətə malikdir. Hazırda biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiya Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması istiqamətində sistemli işlər görür.

Azərbaycanın əldə etdiyi uğurların beynəlxalq təşkilatların və maliyyə institutlarının hesabatlarında da mütəmadi olaraq öz müsbət əksini tapdığını deyən Y.Eyyubov bildirib ki, Dünya İqtisadi Forumunun 2017-2018 Qlobal Rəqabətlilik Hesabatında Azərbaycan 35-ci yerədək yüksəlib və MDB məkanında liderliyini qoruyub saxlayıb. Dünya İqtisadi Forumunun son hesablamalarına əsasən, Azərbaycan dünyada ümumi infrastrukturun inkişafına görə 26-cı, əhalinin ölkənin siyasi xadimlərinə etimad göstəricisi üzrə 20-ci yerdədir: «Doing Business 2018» hesabatında Azərbaycan ötən illə müqayisədə 8 pillə irəliləyərək 190 ölkə arasında 57-ci pillədə qərarlaşıb. Sənədə əsasən, 10 indikatordan 6-sı üzrə öz mövqeyini yaxşılaşdıran Azərbaycan Avropa və Mərkəzi Asiya regionunda 3 ən islahatçı ölkədən biri olub. «Doing Business» hesabatında Azərbaycanın mövqeyinin daha da yaxşılaşması ölkəyə investisiya axınının artmasına da müsbət təsir göstərir. Qeyd edilənlər bir daha göstərir ki, Dünya İqtisadi Forumunun Qlobal Rəqabətlilik, Dünya Bankının «Doing Business» hesabatları və 2018-ci ilin İnklüziv İnkişaf İndeksi üzrə ölkəmizin mövqeyinin yaxşılaşması görülən genişmiqyaslı işlərin məntiqi nəticəsidir».

Baş nazirin birinci müavini xarici tərəfdaşları Azərbaycan iqtisadiyyatına investisiya qoymağa dəvət edib və qeyd edib ki, Dünya Bankı və Beynəlxalq Valyuta Fondu kimi mötəbər beynəlxalq maliyyə təşkilatları qarşıdakı illərdə Azərbaycan iqtisadiyyatında artım proqnozlaşdırır. Azərbaycanda ortamüddətli dövrdə iqtisadi artım üzrə pozitiv dinamikanın qorunacağı şübhəsizdir. Xarici investorlar da ölkəmizə investisiya yatırmaqla qazanclı çıxacaqlar: «Bu gün Azərbaycan Cənubi Qafqazın bütün mənalarda lider dövlətidir. 2012-ci il «Avroviziya» mahnı müsabiqəsi, 2015-ci il Birinci Avropa Oyunları, 2017-ci il İslam Həmrəylik Oyunları və 2016-cı ildən başlayaraq Formula 1 Qran-Prisi kimi mötəbər beynəlxalq tədbirlərə yüksək səviyyədə ev sahibliyi etmiş Azərbaycan mədəniyyətlər arasında dialoq və əməkdaşlığın, eyni zamanda, siyasi müzakirələrin aparıldığı mədəni və siyasi liderlərin bir araya toplaşdığı qlobal mərkəzidir.

2014-cü ilin sonundan başlayan xarici şok makroiqtisadi sferada dərin manevrin həyata keçirilməsi zərurətini yaratdığını deyən Mərkəzi Bankın sədri Elman Rüstəmov qeyd edib: «2015-ci ildən fiskal və monetar siyasətdə həyata keçirilmiş genişmiqyaslı makroiqtisadi manevr xarici şokun neqativ nəticələrini minimallaşdırmağa imkan verdi. Manevr çərçivəsində neft gəlirlərindən istifadə səviyyəsi optimallaşdırıldı, məzənnə korreksiyası və adekvat monetar siyasət həyata keçirildi. Nəticədə milli iqtisadiyyatda xarici və daxili tarazlıq bərpa olundu, ölkənin strateji valyuta ehtiyatlarına əhəmiyyətli qənaət edildi, 2017-ci ildə tədiyə balansında profisit yarandı, milli valyutanın məzənnəsinin yeni tarazlıq səviyyəsi formalaşdı, inflyasiya azaldı və iqtisadi artımın bərpasına nail olundu».

«2017-ci ildən formalaşan makroiqtisadi sabitlik meyilləri 2018-ci ildə davam etməkdədir. Cari ildə inflyasiya birrəqəmli səviyyədə möhkəmlənib, 7 ayda orta illik inflyasiya 2,8 faiz təşkil edib. Proqnozlara görə, ilin sonuna inflyasiyanın elan edilmiş hədəf intervalından aşağı olacağı gözlənilir. Makroiqtisadi sabitlik meyillərinin güclənməsini nəzərə alaraq pul siyasətinin normallaşması istiqamətində addımlar atılıb. Cari ildə uçot dərəcəsi mərhələlərlə 15 faizdən 10 faizə endirilib və faiz dəhlizi optimallaşdırılıb», - deyə Mərkəzi Bankın sədri qeyd edib.

E.Rüstəmov deyib: «Cari ilin 6 ayında tədiyə balansının Cari Əməliyyat Balansında ÜDM-in 16 faizi səviyyəsində profisit yaranıb. Belə şəraitdə valyuta bazarı tarazlı olub və ölkənin strateji valyuta ehtiyatları əhəmiyyətli artıb. Proqnozlara görə ilin sonuna tədiyə balansının profisitli olacağı gözlənilir».

O bildirib ki, Azərbaycan bank əsaslı maliyyə sektoruna malik olduğundan sektorda sabitliyin qorunması və maliyyə vasitəçiliyinin gücləndirilməsi başlıca prioritetdir: «Bu məqsədlə bank sektorunda restrukturizasiya və sağlamlaşdırma üzrə yeni siyasət çərçivəsi həyata keçirilməli, bu siyasət pis borclar və kapitallaşma problemlərinin həllinə yönəlməlidir. Digər istiqamət qiymətli kağızlar bazarının genişləndirilməsidir. O cümlədən, dövlət qiymətli kağızlarının həcminin əhəmiyyətli artırılması milli valyutada pul bazarının təminatlı seqmentinin (REPO bazarı) aktivləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Hazırda Azərbaycanda dövlət qiymətli kağızlarının həcminin artırılması üçün geniş imkanlar var.

Prezident İlham Əliyevin iqtisadi islahatlar kursunun ölkənin biomüxtəlifliyi və multikulturalizmi əsasında iqtisadiyyatın şaxələndirilməsi üçün geniş imkanların açdığını deyən İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı əlavə edib: «Əlverişli biznes mühiti və infrastruktur, makroiqtisadi sabitlik, dövlət dəstəyi, yeni iqtisadi artım nöqtələrinin müəyyənləşməsi, iqtisadiyyatın proqnozlaşdırılma səviyyəsinin artması, həmçinin bazarlara yaxınlıq xarici sərmayənin cəlbi üçün münbit zəmindir. Azərbaycandan dünya istehlakçılarının yarısını əhatə edən 50 ölkəyə uçuş 4 saat civarındadır. Azərbaycanın 1,6 trilyon dollarlıq ÜDM-ə malik bazarlara azad ticarət sazişləri ilə çıxışı var. Bu günlərdə «The Economist Intelligence Unit»in dərc etdirdiyi «Qlobal Yaşam İndeksi Hesabatı»nda Bakı dünyanın yaşam şərtləri yüksək olan şəhərləri sırasına daxil edilib. Şimal-Cənub və Şərq-Qərb dəhlizləri üzərində şaxələnmiş nəqliyyat-logistika infrastrukturu, ölkəmizin inteqrasiyasına yeni imkanlar açır. MDB-də ən rəqabətədavamlı iqtisadiyyatı quran Azərbaycan dünyada m-rezidentlik təklif edən ilk və e-rezidentlik təqdim edən ikinci ölkədir. Bütün deyilənlər Azərbaycana xarici sərmayə cəlbini sürətləndirir. «Azərbaycan Rəqabətlilik Forumu 2018» hökumət və ABŞ biznes dairələri arasında davamlı iqtisadi inkişafı təmin edəcək sərmayə qoyuluşunun artırılması üçün yeni imkanlar açır. Ağ Evin təşəbbüsü kimi qurulan Beynəlxalq Anlaşma üçün İşgüzar Şurası bir çoxu «Fortune 500»ə daxil olan 200 üzv şirkətə malikdir. Belə bir qurumun «Azərbaycan Rəqabətlilik Forumu»nu dəstəkləməsi ölkəmizin biznes mühitinə və iqtisadi siyasətə olan böyük etimadın göstəricisidir. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi və BCIU arasında imzalanan anlaşma memorandumu Azərbaycan-ABŞ iqtisadi əlaqələrinə töhfə olmaqla, ölkəmizə xarici sərmayə qoyuluşu, yeni texnologiyaların tətbiqi, iş yerlərinin açılması və bütövlükdə rəqabət qabiliyyətinin güclənməsi deməkdir».

Energetika naziri Pərviz Şahbazov çıxışında qeyd edib ki, müasir dünyada və beynəlxalq münasibətlər sistemində enerji amilinin rolu getdikcə artır, o, qlobal, regional, milli təhlükəsizlik, iqtisadi inkişaf və əməkdaşlıq məsələlərində əhəmiyyətli rol oynayır. Davamlı enerji təminatı enerji təhlükəsizliyinin mühüm amilinə çevrilib.

Nazir Azərbaycanın neft-qaz sektoruna müasir texnologiyaların və qabaqcıl təcrübənin tətbiqi üçün təqribən 95 milyard ABŞ dolları həcmində investisiya cəlb edildiyini vurğulayıb: «Ötən il 2 milyardıncı ton neftini hasil edən Azərbaycan tarixən neft-qaz ölkəsi kimi tanınır və qlobal enerji layihələrinin müəllifidir».

P.Şahbazov deyib: «Dünyanın enerji balansında təbii qazın çəkisi getdikcə artmaqdadır. Bu mənada «Cənub Qaz Dəhlizi» layihəsinin icrası istiqamətində görülmüş işlər xüsusi əhəmiyyət daşıyır. Bu layihə Xəzər regionunun qaz təchizatı infrastrukturunu Avropa ilə birləşdirməklə bütün regionun enerji xəritəsini dəyişəcək, enerji mənbə və marşrutların şaxələndirilməsində Azərbaycanın rolunu daha da artıracaq».

ABŞ Dövlət Departamentinin İqtisadi və Ticarət İşləri üzrə köməkçisinin birinci müavini Brain McFeeters «Azərbaycan Rəqabətlilik Forumu»nun məqsədləri barədə danışıb, ABŞ şirkətlərini Azərbaycan üzrə planlarına dair məlumatları bölüşməyə dəvət edib.

Sonra müzakirələr müxtəlif sessiyalar üzrə davam edib.

Sessiyalarda vergilər naziri Mikayıl Cabbarov, kənd təsərrüfatı naziri İnam Kərimov, maliyyə naziri Samir Şərifov, nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə, Maliyyə Bazarlarına Nəzarət Palatasının baş icraçı direktoru İbrahim Alışov, iqtisadiyyat nazirinin müavini Sahib Məmmədovun çıxışları dinlənilib. Fikir mübadiləsi üçün beynəlxalq foruma Azərbaycan Sənaye Korporasiyası, Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası, Yüksək Texnologiyalar Parkı, «AmCham», «Coca-cola», «Microsoft», «Herbalife», «Motorola», «P&G», «SkyPower Global» kimi iri qurumların nümayəndələri cəlb edilib.

Forum çərçivəsində Azərbaycanın əlverişli biznes mühiti, biznes və investisiyaların cəlb olunması üçün atılan addımlar, maliyyə, maliyyə sektoru üzrə perspektivlər, eləcə də, enerji, infrastruktur, vergi, kənd təsərrüfatına aid bir sıra məsələlər müzakirə olunub.

# Vergilər Nazirliyində müasir rəqəmsal texnologiyalar tətbiq ediləcək

Vergi orqanlarının fəaliyyətində şəffaflığın təmin edilməsi, vergi inzibatçılığının əlverişli biznes mühitinin formalaşdırılmasına yönəldilməsi, korrupsiya və digər neqativ hallarla mübarizə sahəsində fəaliyyətin gücləndirilməsi məqsədilə aparılan struktur dəyişiklikləri çərçivəsində Vergilər Nazirliyində Rəqəmsal vergi inzibatçılığı departamenti yaradılıb. Yeni yaradılmış departament elektron vergi inzibatçılığının tətbiqi, onun texnoloji təminatının daha yüksək səviyyəyə çatdırılması, məsafədən vergi xidmətlərinin göstərilməsi, operativ informasiya mübadiləsinin təmin edilməsi, informasiya təhlükəsizliyi sisteminin idarə olunması, vergi ödəyicilərinə aid məlumatların məxfiliyinin tam qorunması və digər istiqamətlərdə fəaliyyət göstərəcək. Departamentin tərkibində Vergi ödəyicilərinə məsafədən xidmət şöbəsi, İnformasiya təhlükəsizliyi şöbəsi və İnformasiya texnologiyaları şöbəsi yaradılıb.

### Vergi hesabatlarını vergi orqanları hazırlayacaq

Vergilər Nazirliyi sistemində vergi inzibatçılığı proseslərinin elektron qaydada aparılmasına imkan verən İnternet Vergi İdarəsi 2007-ci ildən etibarən fəaliyyət göstərir. Bu baxımdan, idarənin fəaliyyətinin müasir texnologiyalar əsasında qurulması vacib amildir. Vergilər Nazirliyinin Rəqəmsal vergi inzibatçılığı departamentinin İnformasiya təhlükəsizliyi şöbəsinin rəhbəri Aqşin Məcidovun sözlərinə görə, nazirlik İnternet Vergi İdarəsinin fəaliyyətində yeniliklərin tətbiqinə hazırlaşır. Bununla bağlı olaraq, İnternet Vergi İdarəsinin yeni versiyasının hazırlanması, elektron xidmətlərin həm interfeys, həm də prosedur baxımından təkmilləşdirilməsi (3 klikdən istifadə etməklə öz fəaliyyətini həyata keçirməyə imkan verən sistemin tətbiqi), digər dövlət qurumları ilə inteqrasiyasının genişləndirilməsi, informasiya texnologiyası arxitekturasının optimallaşdırılması nəzərdə tutulub.

Tətbiq ediləcək yeniliklərdən biri də bəyannamələrin hazırlanması ilə bağlıdır. Hazırda vergi bəyannamələri vergi ödəyiciləri tərəfindən tərtib olunur və nazirliyə təqdim edilir. Lakin bəyannamələrin tərtibatı zamanı vergi ödəyiciləri müəyyən çətinliklərlə üzləşirlər. Bu səbəbdən də Vergilər Nazirliyi əlaqəli dövlət qurumları arasında elektron inteqrasiya sistemini təkmilləşdirməklə vergi bəyannamələrinin ödəyicilərin əməliyyatları əsasında vergi orqanları tərəfindən ilkin versiyasının hazırlanaraq təsdiqi üçün vergi ödəyicisinə göndərilməsi üzərində iş aparır.

### E-qaimələrin göndərilməsinin sadələşdirilməsi planlaşdırılır

Vergi qanunvericiliyinin müddəalarına əsasən, cari ilin yanvar ayından etibarən bütün vergi ödəyiciləri elektron qaimə (e-qaimə) tətbiq edir. Hazırda e-qaimə və e-vhf tərtib edilməsində müəyyən mürəkkəblik mövcuddur. Bununla bağlı aparılan işlərin nəticəsi olaraq, nazirliyin informasiya sisteminin təkmilləşdirilməsi, xüsusən də vergi ödəyiciləri üçün istifadəçi interfeyslərinin dizaynına xüsusi diqqət yetirilməsi və e-qaimə və e-vhf-ın göndərilməsinin sadələşdirilməsi planlaşdırılır. Hazırda Vergilər Nazirliyi tərəfindən bu istiqamətdə hazırlıq və təhlil işləri aparılır.

### E-audit - şəffaf yoxlama metodu

Vergilər Nazirliyi vergi ödəyiciləri ilə münasibətdə insan faktorunun rolunu minimuma endirmək məqsədilə, vergi ödəyicilərinə göstərilən elektron xidmətlərin avtomatlaşdırılması ilə yanaşı, vergi nəzarəti proseslərinin avtomatlaşdırılmasına da çalışır. Rəqəmsal vergi inzibatçılığı departamenti elektron auditin (e-audit) effektiv və səmərəli formada tətbiqi üzərində araşdırmalar aparır. Bunun üçün yeni məlumat bazasının yaradılması, vergi ödəyiciləri haqqında məlumatların ümumi bazaya inteqrasiyası, bu sahədə qanunvericiliyin və prosedurların təkmilləşdirilməsi, yeni texnologiyanın tətbiqi və süni intellekt modulları əsasında informasiya sisteminin qurulması işləri həyata keçiriləcək.

### Elektron nəzarət sistemi - onlayn kassa

Vergilər Nazirliyinin rəqəmsal texnologiyalardan istifadənin genişləndirilməsi sahəsində hədəflərindən biri onlayn kassa aparatlarının tətbiqidir. Hazırda nəzarət-kassa aparatlarından nazirliyin sisteminə ötürülən məlumatlar oflayn rejimdə həyata keçirilir. Vergilər Nazirliyinin məqsədi ondan ibarətdir ki, kassa aparatları sahəsində şəffaflıq təmin olunsun. Bunun üçün yaxın gələcəkdə yeni texnologiyadan istifadə olunmaqla onlayn kassa aparatlarının tətbiqi planlaşdırılır. Nazirliyin informasiya sistemi və onlayn kassa aparatı arasında məlumat mübadiləsi onlayn rejimdə həyata keçiriləcəkdir. Nəticədə nazirliyin sistemində vergi ödəyicilərinin əməliyyat məlumatları daha dürüst olacaq və satış mühasibatlığında şəffaflığı artıracaq. Bundan əlavə, kassa aparatları üzrə texniki tələblərə yenidən baxılması planlaşdırılır.

### Yeni texnologiyalar yeni təhlükəsizlik sistemi tələb edir

Dövlət orqanları tərəfindən həyata keçirilən xidmətlərin «Dövlət xidmətləri» Portalında Vergilər Nazirliyi ən çox elektron xidmət təklif edən qurumdur. Hazırda nazirlik tərəfindən təklif edilən elektron xidmətlərin sayı 63-dür və bu xidmətlərin sayının artırılması istiqamətində işlər aparılır. Bu tədbirlər sayəsində gələcəkdə vergi ödəyiciləri ilə münasibətlərdə insan amilinin aradan qaldırılması və xidmət şəbəkələrinin iş həcminin azaldılması hədəf seçilib. Elektron xidmətlərin sayının və keyfiyyətinin artırılması, elektronlaşmanın yüksək səviyyəyə çatdırılması təhlükəsizlik məsələlərinin həllini zəruri edir.

İnformasiya təhlükəsizliyi sisteminin idarə edilməsində müasir metodların tətbiqi və vergi ödəyicilərinə aid məlumatların məxfiliyinin tam qorunması Rəqəmsal vergi inzibatçılığı departamentinin hədəflərindən biridir. Vergilər Nazirliyində vergi ödəyicilərinə məxsus kommersiya sirləri və vergi orqanlarının fəaliyyəti ilə bağlı toplanılan məlumatların kiberhücumlardan sığortalanması üçün ən müasir və təkmil texnologiyaların tətbiqi vacibdir. Hazırda nazirlik bu sahənin də təkmilləşdirilməsi istiqamətində iş aparır.

Beləliklə, Vergilər Nazirliyində həyata keçirilən yeni rəqəmsal idarəetmə sistemi çərçivəsində müasir vergi siyasətinin tənzimlənməsi yolu ilə nəzərdə tutulmuş hədəflərə, prinsip və məqsədlərə daha effektiv nail olunacaq.

# Yeni biznes modeli layihəsi

**Azərbaycanda kiçik və orta sahibkarlığın (KOS) fəaliyyətinin stimullaşdırılması, maliyyə vəsaitləri ilə təmin olunmasının yaxşılaşdırılması hazırda həyata keçirilən iqtisadi siyasətin əsas prioritetlərindəndir. «Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi»ndə sahibkarlığın müasir modellərinin hazırlanması və səmərəli mexanizmlərin tətbiqi ilə bağlı müvafiq iqtisadi qurumlar, bank, maliyyə-kredit təşkilatları qarşısında vəzifələr müəyyən edilib. Eyni zamanda, sahibkarların iqtisadi təşkilatları və assosiasiyaları ilə birgə layihələrin hazırlanaraq həyata keçirilməsi qarşıya məqsəd qoyulub.**

### KOS-un maliyyə təminatının yaxşılaşdırılması məqsədilə...

«İqtisadi resursların öyrənilməsi» İctimai Birliyi tərəfindən hazırlanmış «Regionlarda sahibkarlığın biznes imkanlarının genişləndirilməsi üçün tədbirlərin təşkili» layihəsi də KOS-un inkişafı ilə bağlı prioritetləri özündə əks etdirir. Birliyin sədri Ruslan Atakişiyevin sözlərinə görə, «Birgə biznes modeli» adlandırılan yeni layihədə sahibkarlığın, xüsusilə regional sahibkarlığın maliyyə təminatının təkmilləşdirilməsi, bu istiqamətdə məqsədli dövlət maliyyələşməsi ilə yanaşı, alternativ maliyyə mənbələrinin daha da aktivləşdirilməsi, kiçik və orta sahibkarların maliyyəyə çıxış imkanlarının artırılması, kreditlərin sığortalanması mexanizminin hazırlanması, stimullaşdırma məqsədilə tarazlı vergi, gömrük, tarif siyasətinin həyata keçirilməsi, sahibkarların ixrac imkanlarının genişləndirilməsi üçün mütəmadi tədbirlərin davam etdirilməsi ilə bağlı mühüm istiqamətlər müəyyən edilib.

Strateji hədəf kiçik və orta sahibkarlığın ÜDM-də payının əhəmiyyətli dərəcədə artırılmasına nail olmaqdır. Layihəyə əsasən, kiçik və orta təsərrüfat sahibləri arasında birgə istehsal-ixrac və satış əlaqələrinin genişləndirilməsi və bu məqsədlə dünya praktikasında müvəffəqiyyətlə tətbiq edilən təşkilati formalardan olan birgə biznes modelinin yaradılması nəzərdə tutulur. Yeni layihə müvafiq iqtisadi qurumlar, o cümlədən Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyi tərəfindən müsbət qarşılanıb.

### Biznes modelinin üstünlükləri

«Birgə biznes modeli»nin formaları və üstünlükləri barədə fikirlərini bildirən İqtisadi Araşdırmalar və Tədris Mərkəzinin rəhbəri Radil Fətullayev hesab edir ki, hazırda kiçik və orta biznes sahiblərinin böyük əksəriyyətinin əsas problemlərindən biri maliyyə vəsaitləri ilə təminatının zəif olmasıdır. Kiçik sahibkar fərdi şəkildə bankdan və yaxud kredit təşkilatından kredit əldə etməkdə çətinlik çəkir. KOS subyektləri üzrə risk faktorunun yüksək olması onların maliyyə resurslarına çıxış imkanlarını məhdudlaşdırır. KOS-un maliyyə kanallarına diversifikasiyası üçün zəruri amillərdən biri sahibkarların mal və avadanlıqlarını daşınar əmlak qismində girova qoymasıdır. Bu məqsədlə bir neçə sahibkarın birləşərək böyük dəyərə malik girov qoyması irihəcmli maliyyənin əldə olunmasına imkan verə bilər. Bu isə onların birgə iri layihələr həyata keçirməsi və daha yüksək gəlir əldə etməsi deməkdir. Yəni birgə biznes sahibkarların həm istehsala və xidmət sahələrinə sərmayə qoyuluşunu asanlaşdırır, həm də gəlirliliyini yüksəldir.

R.Fətullayevin dediyinə görə, «Birgə biznes modeli»nin müxtəlif təşkilati-hüquqi forması vardır. Sahibkarlar həm hüquqi şəxs yaratmadan, həm də hüquqi şəxs yaradaraq birgə fəaliyyət göstərə bilərlər. Birgə fəaliyyətin əsas növləri isə Tam Ümumi Ortaqlıq (TO), Məhdud Məsuliyyətli Ortaqlıq (MMO) və Məhdud Məsuliyyətli Cəmiyyətdir (MMC). TO formasında birləşən sahibkarlar müəssisənin öhdəlik və kapitalı üzrə məsuliyyəti tam daşıdığı halda, MMO-da tərəflər müəssisənin fəaliyyəti ilə bağlı məsuliyyət daşımır və yalnız razılaşma əsasında ortaq olurlar. Ən geniş yayılmış MMC-də isə tərəflər şirkətin sahibləri kimi eyni məsuliyyət daşıyırlar.

«Birgə biznes modeli»ndə tərəflər ortaqlıq, təsisçi və birgə fəaliyyət haqqında müqavilə imzalamaqla kiçik biznesdən daha iri biznesə doğru addım atırlar. Bu biznesin üstünlükləri isə bilik və bacarıqların, idarəçilik qabiliyyəti və imkanlarının birləşdirilərək daha yaxşı və çevik qərarların qəbul edilməsi, bununla da biznesin idarə olunmasında səmərəliliyin artmasıdır.

### Vergi məsələləri...

Məlum olduğu kimi, kiçik və orta biznes təmçilçiləri əsasən sadələşdirilmiş vergi ödəyiciləridir. Onlar birgə biznesdə təmsil olunduqları zaman maliyyə əməliyyatlarının həcminin artması labüddür. Belə olan halda, «Birgə biznes modelində vergi məsələləri necə tənzimlənməlidir? Mühasibat və audit üzrə mütəxəssis Mehdi Babayevin sözlərinə görə, KOS subyektlərinin birləşərək yeni təşkilati formada təmsil olunması vergitutma və vergi öhdəlikləri ilə bağlı yeni münasibətlərin yaranmasına gətirib çıxarır. Vergi Məcəlləsinin 103.2 maddəsinə görə, fiziki şəxs olmayan hər hansı xarici şəxs bu Məcəllənin 137-ci maddəsinə uyğun olaraq birgə sahibkarlıq fəaliyyətinin obyekti kimi baxılmalı olmadığını sübut etməyincə, bu fəslin məqsədləri üçün ona müəssisə kimi baxılır. Eyni zamanda, Vergi Məcəlləsinin 137-ci maddəsinə əsasən (birgə fəaliyyətdən gəlirin bölüşdürülməsi), hüquqi şəxs yaratmadan birgə sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslər həmin fəaliyyətdən əldə etdikləri birgə gəliri (bu fəaliyyətlə bağlı birgə xərci çıxmaqla) hesabladıqdan sonra, birgə sahibkarlıq fəaliyyətlərinə dair razılığa uyğun olaraq, vergiyə cəlb edilən gəliri bu fəaliyyətin iştirakçıları arasında bölürlər. Yəni, onlar ƏDV ödəyicisi hesab edilirlər: «Vergi Məcəlləsinin 159.2-ci maddəsində qeyd olunub ki, vergidən azad edilən malların göndərilməsindən, işlərin görülməsindən və xidmətlərin göstərilməsindən başqa, müstəqil sahibkarlıq fəaliyyəti və ya hüquqi şəxs yaratmadan birgə sahibkarlıq fəaliyyəti çərçivəsində malların göndərilməsi, işlərin görülməsi və xidmətlərin göstərilməsi, onlar bu Məcəllənin 167-ci və ya 168-ci maddələrinə uyğun olaraq Azərbaycan Respublikasının ərazisində həyata keçirilirsə, vergi tutulan əməliyyatlar sayılır. Həmçinin, onlar əmlak vergisinin ödəyicisi də ola bilirlər. Vergi Məcəlləsinin 197.2-ci maddəsinə əsasən, vergitutma obyekti olan və müəssisələr tərəfindən hüquqi şəxs yaratmadan birgə fəaliyyət aparmaq üçün birləşdirilən əsas vəsaitlərin dəyəri həmin vəsaitləri birləşdirən birgə fəaliyyət iştirakçıları tərəfindən vergiyə cəlb edilməsi məqsədləri üçün bəyannaməyə daxil olunur. Birgə fəaliyyət nəticəsində yaradılmış (alınmış) əsas vəsaitlərin dəyəri isə bu fəaliyyətin iştirakçıları tərəfindən müqavilə üzrə mülkiyyətdə müəyyən edilmiş pay haqqına müvafiq olaraq bəyannaməyə daxil edilir».

Mütəxəssis hesab edir ki, KOS subyektləri «Birgə biznes modeli» əsasında birləşdiyi halda, yaranan vergi öhdəliyi onlar üçün vergi yükünün bir qədər artmasına gətirib çıxara bilər. Ona görə də hökumətin KOS sahəsində stimullaşdırıcı vergi islahatlarının davam etdirilməsi çərçivəsində bu məsələyə də baxması zərurəti meydana çıxıb. Maliyyə və uçot sahəsində öhdəliklərə gəlincə, yeni modelin tətbiqi həmin sahədə yeni tələblər ortaya qoymur. Çünki milli mühasibat uçotu və mühasibat uçotunun beynəlxalq standartları uçot işinin təşkili üçün kifayət qədər hüquqi əsaslar yaradır.

**Elbrus CƏFƏRLİ**

# Elektron ticarətin vergiyə cəlb olunması

İstər beynəlxalq təcrübədə, istərsə də Azərbaycanda yeni bir məfhum olan elektron ticarətin vergiyə cəlb olunması anlayışı bu gün də aktual məsələlərdəndir. Mövzunu «Baker Tilly» şirkətinin vergi və hüquq məsələləri üzrə partnyoru Nərmin Hacıyeva şərh edir.

### Mövcud hüquqi şərtlər

Xarici dövlətlərin təcrübəsində ticarət məcəlləsi, ticarət normaları deyilən bir akt mövcuddur. Azərbaycanda qəbul edilmiş «Elektron ticarət haqqında» Qanunda qeyd olunub ki, e-ticarət satıcıları vergi ödəyicisi kimi qeydiyyata alınmalıdırlar. Lakin buna nə dərəcədə əməl olunduğunu müəyyənləşdirmək, e-ticarət satıcıları virtual olaraq elektron portallar vasitəsilə əməliyyat apardıqları üçün onların əməliyyatlarını, dövriyyəsini, qeydiyyata alınıb-alınmadıqlarını izləmək inzibatçılıq baxımından çətinlik yaradırdı.

2016-cı ilin avqust ayında Azərbaycan Prezidentinin sərəncamı ilə vergi sahəsində bir sıra islahatların istiqamətləri müəyyənləşdirildi və onlardan biri də beynəlxalq təcrübədə rəqəmsal iqtisadiyyatın vergiyə cəlb olunması məsələlərinin öyrənilməsi və bu mexanizmlərin qanunvericiliyə daxil edilməsi idi. Vergi Məcəlləsinə edilən müəyyən dəyişikliklər arasında rəqəmsal iqtisadiyyatın vergiyə cəlb olunmasında əsas iki məsələ - ödəmə mənbəyində verginin tutulması (10%) və ƏDV-nin (18%) tətbiq edilməsi mexanizmidir.

### Təcrübədə rast gələnən çətinliklər

Vergi Məcəlləsində ödəmə mənbəyində verginin tutulması üzrə müddəaya diqqət yetirsək, bu tətbiqin xarici e-pul kisəsinə pulların qoyulması, transfer edilməsi ilə bağlı olduğunu görərik. Xarici e-pul kisəsinə transfer edilən istənilən maliyyə vəsaitinin sonrakı taleyi və təyinatı barədə məlumat əldə etmədən köçmə anında 10% dərəcə ilə ödəmə mənbəyindən vergi tutulur. Burada əsas məsələ hər iki verginin tutulması öhdəliklərinin bankların üzərinə qoyulmasıdır. Bu, satıcı-sahibkarın alıcı-istehlakçıya olan münasibətdə əməliyyatlarını tənzimləyir. Alıcı-istehlakçı isə qeydiyyata alınmayan şəxsdir. Vergi Məcəlləsində vergi ödəyicisi kimi qeydiyyata alınan şəxslərin, qeyri-rezidentin ƏDV ilə bağlı ödəmə mənbəyindən tutulan vergi ilə bağlı öhdəlikləri var və normal qaydada işlək mexanizmləri mövcuddur.

Vergi Məcəlləsinə görə, qeyri-rezident e-ticarət satıcıları Azərbaycan Respublikası alıcılarına iş və xidmət təklif edərkən 18% dərəcə ilə ƏDV-yə cəlb olunurlar. «Elektron ticarət haqqında» Qanuna edilən dəyişikliklərdə qeyd olunub ki, buraya informasiya portallarının, informasiya sistemlərinin internetdən istifadə etməklə təqdim etdiyi iş və xidmətlər daxildir. Xüsusən e-kitabların, musiqinin, video-audio materialların, qrafik təsvirlərin və virtual oyunların yüklənməsi kimi əməliyyatlar və xidmətlər də 2017-ci ilin əvvəlindən e-ticarət qaydasında təqdim edilən iş və xidmətlər sayılır.

Vergi Məcəlləsinin 169.1-ci maddəsinə əsasən, ƏDV məqsədləri üçün qeydiyyata alınmayan qeyri-rezident Azərbaycan Respublikası ərazisində bu məcəllənin 169.2-ci və ya 169.5-ci maddələrində adı çəkilən vergi agenti üçün xidmət göstərirsə və ya iş görürsə (elektron ticarət qaydasında Azərbaycan Respublikasının hüdudlarından kənarda otel xidmətlərinin və aviabiletlərin sifarişi üzrə xidmətlər istisna olmaqla, işlərin görülməsi və xidmətlərin göstərilməsi), bu fəslin məqsədləri üçün işlərin görülməsi və xidmətlərin göstərilməsi bu maddəyə uyğun olaraq vergiyə cəlb olunur.

E-ticarət üzrə qeyri-rezidentin əməliyyatlarının ƏDV-yə cəlb olunması ilə bağlı diqqət yetirməli olduğumuz digər iki məqam isə bundan ibarətdir ki, alıcı vergi ödəyicisi olmadıqda ödənilən məbləğ Azərbaycan Respublikası tərəfindən alıcının vəsaiti hesabına tutulur. Son nəticədə qeyri-rezident satıcı göstərdiyi xidmətə görə hər hansı bir dəyər formalaşdırırsa, həmin dəyəri - xidməti təklif edirsə, bu, son nəticədə qeyri-rezidentə çatır. Dəyərin üzərindəki məbləğ, 18%-lik ƏDV isə Azərbaycan Respublikasının alıcısının, istehlakçısının vəsaiti hesabına tutulur. Bu isə o deməkdir ki, istənilən vətəndaş bu gün plastik kart vasitəsilə 10 ABŞ dolları dəyərində hər hansı elektron kitab yükləmək istəyərsə, onun hesabından tutulacaq məbləğin üzərinə ƏDV də əlavə ediləcək.

Qeyd olunan məbləğlər bank tərəfindən hesablansa da, bu məbləğlər hər hansı formada əvəzləşdirilə bilməz. Məlumdur ki, ƏDV əvəzləşdirilə bilən vergi növüdür və bununla bağlı qanunvericilikdə konkret müddəalar var. Bu məbləğlər isə bankların öz fəaliyyəti ilə bağlı olan məbləğlər deyil. Bunlar sırf bankların vasitəçi olduğu, hesabladığı və tutduğu məbləğlərdir ki, bu və ya digər şəkildə bank fəaliyyəti ilə əlaqəli olmadığı üçün onların əvəzləşməsinə imkan yoxdur.




**Mobil cihazların qeydiyyata alınması zamanı dövlət rüsumunun tətbiqini tənzimləyən «Dövlət rüsumu haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu» 2018-ci il iyulun 1-dən qüvvəyə minib. Qanuna əsasən, satış və digər sahibkarlıq fəaliyyəti məqsədilə hüquqi və fiziki şəxslər tərəfindən idxal olunarkən gömrük rüsumu və ƏDV tutulmaqla rəsmiləşdirilmiş mobil cihazlar istisna olmaqla, fiziki şəxs tərəfindən şəxsi istehlakı üçün ölkəyə gətirilən mobil cihazların qeydiyyata alınmasına görə dövlət rüsumu tutulur, mobil cihazların qeydiyyata alınmasına görə dövlət rüsumunun məbləğləri isə hər il üçün Nazirlər Kabineti tərəfindən müəyyən edilir**

### Onlayn sifarişlə gətirilən telefonlara verginin tətbiq olunması

Vergi Məcəlləsinə görə, malların elektron ticarət qaydasında alışı zamanı yerli bank və ya xarici bankın Azərbaycan Respublikasındakı filialı tərəfindən ƏDV tutulmur.

«Fiziki şəxslər tərəfindən istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların gömrük sərhədindən keçirilməsinin güzəştli və sadələşdirilmiş Qaydaları» fiziki şəxslər tərəfindən istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların Azərbaycan Respublikası gömrük sərhədindən keçirilməsinin güzəştli və sadələşdirilmiş qaydalarını müəyyən edir.

**Fəxriyyə İKRAMQIZI**

# Azərbaycanda mərkəzləşdirilmiş e-informasiya sistemi yaradılacaq

## Yeni sistem ölkədə idarəetmə sisteminin səmərəliliyinin artırılmasını təmin edəcək

Azərbaycanda modern və çevik idarəetmənin təmin edilməsi, dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılması və korrupsiyaya şərait yaradan halların aradan qaldırılması məqsədilə əhaliyə göstərilən xidmətlərin elektron qaydada həyata keçirilməsi istiqamətində əhəmiyyətli işlər aparılır. Bununla belə, vətəndaşlara xidmət göstərilməsində şəffaflığı və operativliyi təmin etmək üçün əmək, məşğulluq, sosial müdafiə və sosial təminat sahələrində dövlət xidmətlərinin tam elektronlaşdırılması, müvafiq informasiya sistemlərinin formalaşdırılması, informasiya texnologiyalarının tətbiqi ilə innovativ idarəetmənin təmin edilməsi, korrupsiya, sui-istifadə və süründürməçilik hallarının qarşısının alınması yönündə bir sıra əlavə tədbirlərin görülməsinə ehtiyac hiss olunurdu. Prezident İlham Əliyevin bu günlərdə imzaladığı fərman da qeyd olunan məsələlərin həlli istiqamətində atılan mühüm addım kimi qiymətləndirilməlidir.

Fərmana əsasən, ölkədə idarəetmə sisteminin daha da təkmilləşdirilməsi, bir sıra qurumların fəaliyyətində səmərəliliyinin artırılmasının təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin informasiya sistemləri əsasında «Mərkəzləşdirilmiş elektron informasiya sistemi» (MEİS) yaradılacaq. Sənəddə bildirilir ki:

- Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi - fəaliyyət istiqamətləri üzrə əhaliyə göstərilən xidmətlərin vahid platforma üzərindən elektron formada təqdim edilməsi məqsədilə «e-sosial» internet portalının üç ay müddətində yaradılmasını təmin etsin;
- məşğulluq tədbirləri ilə bağlı xidmətlərin elektron şəkildə həyata keçirilməsi məqsədilə MEİS-də məşğulluq altsisteminin altı ay müddətində yaradılmasını təmin etsin;
- portal vasitəsilə aparılan əməliyyatların və fərdi məlumatların təhlükəsizliyini təmin etmək məqsədilə Xüsusi Dövlət Mühafizə Xidməti ilə birlikdə tədbirlər görsün;
- Ədliyyə Nazirliyi, Maliyyə Nazirliyi və Azərbaycan Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə razılaşdırmaqla üç ay müddətində MEİS haqqında əsasnamənin layihəsini hazırlayıb Azərbaycan Prezidentinə təqdim etsin;
- portal haqqında əsasnamənin layihəsini hazırlayıb Azərbaycan Prezidentinə təqdim etsin;
- pensiya təyinatının avtomatlaşdırılmasına, bu sahədə xidmətlərin elektron qaydada göstərilməsinə və vətəndaşların sosial sığorta stajının müəyyən edilməsinə dair qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Prezidentinə təqdim etsin;
- fərmandan irəli gələn digər tədbirləri görsün.

Fərmandan irəli gələn tapşırıqlara uyğun olaraq, Azərbaycan Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi portalın və bu fərmanda nəzərdə tutulan altsistemin fəaliyyətini təmin etmək məqsədilə onlarla digər dövlət orqanlarının informasiya sistemləri və ehtiyatları arasında informasiya mübadiləsinin və elektron xidmətlərin göstərilməsinin «Elektron hökumət» portalı vasitəsilə təşkili üçün tədbirlər görməlidir.

Sənədə əsasən, Nazirlər Kabinetinə:

- əmək, məşğulluq, sosial müdafiə və sosial təminat sahələrində xidmətlərin elektron qaydada həyata keçirilməsi və pensiya təyinatının tam elektronlaşdırılmasına keçidlə əlaqədar Azərbaycan Respublikası qanunlarının təkmilləşdirilməsi ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Prezidentinə təqdim etmək;
- portalın və bu fərmanda nəzərdə tutulan altsistemin yaradılması və saxlanması ilə bağlı xərclərin maliyyələşdirilməsini iki ay müddətində təmin etmək;
- Azərbaycan Respublikası Prezidentinin aktlarının bu fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Prezidentinə təqdim etmək;
- Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Prezidentinə məlumat vermək;
- mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlamaq və bunun icrası barədə beş ay müddətində Azərbaycan Prezidentinə məlumat vermək;
- bu fərmandan irəli gələn digər məsələləri həll etmək tapşırılıb.

Ədliyyə Nazirliyi isə mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu fərmana uyğunlaşdırılmasını təmin edib Nazirlər Kabinetinə məlumat verməlidir.

**Rəşad SADIQOV**

# Muzdla işləyənlərin sayı artıb

2018-ci il avqustun 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 1,2% artaraq 1543,1 min nəfər olub. Dövlət Statistika Komitəsinin yaydığı məlumata görə, həmin şəxslərin 881,8 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 661,3 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərib.

Muzdla işləyənlərin 21,3%-i təhsil, 18,8%-i ticarət və nəqliyyat vasitələrinin təmiri, 13,3 %-i sənaye, 8,5%-i əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 7,2%-i tikinti, 7,0%-i dövlət idarəetməsi, müdafiə və sosial təminat, 4,6%-i nəqliyyat və anbar təsərrüfatı, 3,4%-i peşə, elmi və texniki fəaliyyət, 3,2%-i kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 1,6 %-i maliyyə və sığorta fəaliyyəti, 11,1%-i isə iqtisadiyyatın digər sahələrində məşğul olublar.

2018-ci ilin yanvar-iyul aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 3,7% artaraq 542,3 manat təşkil edib. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, informasiya və rabitə, nəqliyyat və anbar təsərrüfatı, eləcə də tikinti sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olub.

## Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva
Vergilər Nazirliyinin
Vergi siyasəti departamentinin baş direktoru
vergi ödəyicilərinin suallarına cavab verir

# Nağdsız ödənişin NKA-ya mədaxil olunması

***İctimai iaşə obyektində müştəri tərəfindən ödəniş nağdsız qaydada, POS-terminal vasitəsilə aparıldıqda, həmin məbləğ nəzarət-kassa aparatına (NKA) mədaxil edilməlidirmi?***

Vergi Məcəlləsinin 16-cı maddəsinin müddəalarına əsasən nağd pul hesablaşmaları aparılan zaman alıcıya çek, qəbz, bank çıxarışları və digər ciddi hesabat blanklarını təqdim etmək və həmin çek, bank çıxarışları və ya ciddi hesabat blanklarında qanunvericiliklə müəyyən edilmiş məlumatların əks etdirilməsini təmin etmək, o cümlədən nağdsız ödənişlərin aparılması üçün «İstehlakçıların hüquqlarının müdafiəsi haqqında» Azərbaycan Respublikası Qanununun 17-ci maddəsinə uyğun olaraq POS-terminalların quraşdırılmasını təmin etmək vergi ödəyicisinin vəzifələrinə aid edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 19 aprel tarixli 1341 nömrəli Fərmanı ilə təsdiq edilmiş «İctimai iaşə fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması Qaydası»-nın 4.3-cü bəndinə görə ictimai iaşə obyektlərində xidmət göstərilməsi nəzarət-kassa aparatı və POS-terminallar tətbiq edilməklə həyata keçirilir. Bu zaman xidmətlərin dəyəri nağd qaydada ödənildikdə, müştəriyə (istehlakçıya) nəzarət-kassa aparatının çeki, xidmətlərin dəyəri POS-terminal vasitəsilə ödənildikdə isə müştəriyə (istehlakçıya) nəzarət-kassa aparatının çeki və POS-terminaldan çıxarış verilir.

**Qeyd olunanlara əsasən:** İctimai iaşə obyektlərində xidmətlərin dəyəri POS-terminal vasitəsilə ödənildikdə müştəriyə (istehlakçıya) nəzarət-kassa aparatının çeki ilə yanaşı, POS-terminaldan çıxarış verilir.

Suallarınızı redaksiyamızın ünvanına:
AZ 1073, Bakı ş., Landau küç., 16 və ya **s.musayeva@taxes.gov.az**
elektron poçt ünvanına göndərə bilərsiniz

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- İndiyədək ABŞ tərəfindən Azərbaycan iqtisadiyyatına **13 milyard** dollardan çox investisiya qoyulub ki, bunun da 1 milyard dollardan çoxu qeyri-neft sektoruna yönəldilib.
- Bu ilin avqust ayında Dövlət Gömrük Komitəsinin xətti ilə dövlət büdcəsinə daxilolmalar **329 milyon 805,5 min** manat təşkil edib.
- Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən oktyabrın 9-da keçiriləcək hərracа **67** dövlət əmlakı çıxarılacaq.
- Avqust ayı ərzində Azərbaycanda gündəlik neft hasilatı 774 min barel olub ki, bunun da **716 min** barelini xam neft, **58 min** barelini isə kondensat təşkil edib.

## ƏRAZİ VERGİ ORQANLARINDA

- Xırdalan şəhərində 2 saylı Ərazi Vergilər Departamentinin (ƏVD) əməkdaşları tərəfindən yeni uçota alınmış vergi ödəyicilərinin iştirakı ilə görüş keçirilmişdir. Tədbirdə kiçik və orta sahibkarlar tərəfindən İKT həllərinin tətbiqinin genişləndirilməsi üçün maarifləndirici və təşviqedici tədbirlər çərçivəsində təşkil edilmiş görüşdə vergi ödəyicilərinə elektron xidmətlərdən istifadənin mənimsənilməsi, vergilərin elektron qaydada ödənilməsi, açıq hökumət prinsiplərinin tətbiqinin genişləndirilməsi kimi məsələlərlə bağlı ətraflı məlumat verilmişdir.
- 2 saylı ƏVD tərəfindən Xızı şəhərində fəaliyyət göstərən bələdiyyə üzvlərinin iştirakı ilə keçirilən görüşdə elektron xidmətlərdən istifadənin mənimsənilməsi, Vergi Məcəlləsinə edilmiş dəyişikliklər, yerli (bələdiyyə) vergilərin və ödənişlərin hesablanması, ödənilməsi, torpaq və əmlak vergisinə edilmiş dəyişikliklər, yerli vergilərin ödəyiciləri olan fiziki şəxslərin və sahibkarlıq fəaliyyəti subyektlərinin uçota alınması sahəsində bələdiyyələrə metodiki kömək göstərilməsi mövzusunda söhbət aparılmışdır.
- 5 saylı Ərazi Vergilər İdarəsinin (ƏVİ) əməkdaşları Saatlı şəhərində vergi ödəyiciləri ilə görüş keçirmişlər. Əsas mövzusu Nazirlər Kabinetinin Qərarı ilə «Elektron qaimə-fakturanın forması» və «Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları», 2018-ci il 1 yanvar tarixdən etibarən statusundan asılı olmayaraq bütün vergi ödəyiciləri tərəfindən sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin,xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-faktura təqdim olunması kimi aktual məsələləri əhatə edən tədbirdə vergi ödəyicilərini maraqlandıran suallar cavablandırılmışdır.

# Rəqəmsal Ticarət Qovşağı beynəlxalq ticarət platformasına çevrilir

Azərbaycanın elektron ticarət sahəsində dövlət-özəl sektor əməkdaşlığının ən innovativ modeli olan Rəqəmsal Ticarət Qovşağı (RTQ) fəaliyyətə başlamasından bir il ötməsinə baxmayaraq, kifayət qədər uğurlu ticarət platformasına çevrilməyi bacarıb. 2018-ci ilin ötən ayları ərzində həyata keçirilmiş səmərəli işlər respublikamızın beynəlxalq bazarlarda mövqeyinin gücləndirilməsinə və xarici ticarət əməliyyatlarının genişləndirilməsinə səbəb olub. Azərbaycanın diplomatik nümayəndəlikləri və konsulluqları vasitəsilə xarici iş adamları ilə qeyri-rezidentlərə elektron imza, o cümlədən «ASAN imza» sertifikatının verilməsi təmin edilib. Azərbaycanla ISESCO arasında anlaşma memorandumunun imzalanması ilam ölkələrində elektron imzaların qarşılıqlı tanınmasına imkan yaradıb. Avstraliya, Fici, Yeni Zelandiya, Çin hökuməti ilə «e-imza»ların və «ASAN imza» sertifikatlarının qarşılıqlı tanıdılması razılaşdırılıb.

### Qeyri-rezidentlərin elektron qeydiyyatı təmin olunub

Rəqəmsal Ticarət Qovşağında iştirakçı dövlət orqanlarından biri olan Vergilər Nazirliyi də xarici iş adamlarının elektron qeydiyyatı sahəsində müvafiq tədbirlər həyata keçirilib. Nazirliyin Asan Sertifikat Xidmətləri Mərkəzi tərəfindən «elektron imza»sı olan şəxslərin Azərbaycanda elektron qeydiyyatının, yəni biznesə başlama prosedurlarının elektronlaşdırılması ilə bağlı elektron xidmət hazırlanıb və təsdiq edilib. Elektron imza, o cümlədən «ASAN imza» vasitəsilə ikiqat vergitutmanın aradan qaldırılması haqqında sazişlərin formaları sadələşdirilib, xarici ölkə ərazilərində də elektron qaydada təsdiq edilməsi imkanı yaradılıb. Bu istiqamətdə ən mühüm tədbirlərdən biri kimi ikiqat vergitutmanın aradan qaldırılması haqqında saziş formaları (DTA) sadələşdirilib, xarici rezidentlərin elektron qaydada müraciət etmək, bütün gəlir növləri üzrə güzəştlərin əvvəlcədən tətbiq olunması, formanın təsdiqinin gəlir ödəyən şəxsə birbaşa onlayn göndərilməsi təmin edilib.

Xüsusi vergi rejimi tətbiq olunan vergi ödəyicilərinə münasibətdə ƏDV inzibatçılığının elektronlaşdırılması üçün lazımi infrastruktur yaradılıb. ƏDV-dən «0» faiz dərəcəsi ilə azadolma sertifikatının alınması məqsədilə Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində «E-sertifikat» modulu istifadəyə verilib. Sertifikatın alınması prosesinin elektronlaşdırılması vergi ödəyicilərinin vaxt və inzibati xərclərinin əhəmiyyətli şəkildə azalaraq optimallaşdırılmasına və biznesin təşviqinə səbəb olmaqla yanaşı, xarici biznes tərəfdaşları arasında sənədlərin elektron formada tərtibi və imzalanmasına, digər dövlətlərlə elektron məlumat mübadiləsi, transsərhəd elektron xidmətlərin həyata keçirilməsinə, xarici investorlar üzrə vergi və inzibati xərclərinin minimuma endirilməsinə imkan verir.

> Xüsusi vergi rejimi tətbiq olunan vergi ödəyicilərinə münasibətdə ƏDV inzibatçılığının elektronlaşdırılması üçün lazımi infrastruktur yaradılıb

### «Azexport» beynəlxalq e-ticarət sistemində...

2018-ci ilin ötən dövründə xarici ölkələrin biznes nümayəndələri ilə elektron ticarətin intensivliyini təmin edən «Azexport» portalının imkanları da genişlənib. Xüsusilə qeyri-neft məhsullarının ixracında əhəmiyyətli resursa çevrilən portalın nəzdində fəaliyyət göstərən «bir pəncərə» Azərbaycan sahibkarlarının öz xarici biznes tərəfdaşları arasında sənədlərin, o cümlədən müqavilələrin elektron formada tərtibinə və imzalanmasına, habelə real vaxt rejimində transsərhəd elektron xidmətlərin həyata keçirilməsinə şərait yaradır.

«Azexport» Azərbaycanda istehsal edilən məhsulların ixracını dəstəkləyən «Alibaba.com», «eBay.com», «Wholesale», «Amazon», «All.biz» kimi dünya elektron ticarət platformalarına inteqrasiya olunub. Artıq istifadəçilərinin sayı təxminən 1,5 milyard nəfərə çatan portala xarici sifarişçilərdən daxil olan sorğuların dəyəri 800 milyon ABŞ dollarından çoxdur. «Azexport»un rəhbəri Zaur Qardaşov bildirib ki, yeni portallara inteqrasiya ənənəvi bazarlardan fərqli yeni bazarlara çıxış imkanlarının təmin edilməsi və «Made in Azerbaijan» məhsullarının ixrac istiqamətlərinin genişləndirilməsi istiqamətində mühüm rol oynayır. Yerli məhsulların ixrac coğrafiyasını daha da genişləndirmək, yeni potensial müştərilərin tapılmasında sahibkarlara dəstək məqsədilə daha bir neçə beynəlxalq elektron satış portalları ilə əməkdaşlığa start verilib.

### Hədəflər...

Azərbaycanın qarşısında duran müasir iqtisadi çağırışlardan biri ixracyönümlü iqtisadiyyata keçidin təmin olunması, Avropa və MDB ölkələri,Türkiyə, Gürcüstan və İran kimi yaxın region dövlətləri ilə əlverişli ticarət sazişlərinə əsaslanan aşağı tarifli mühitdə səmərəli gömrük prosedurlarının tətbiqi nəticəsində respublikamızın ticarət qovşağı kimi mövqeyinin gücləndirilməsidir. Bu məqsədlə ölkəmizin şaxələndirilmiş nəqliyyat-logistika imkanlarından və informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə etməklə ixrac potensialının yüksəldilməsi, transsərhəd ticarətin, o cümlədən elektron ticarətin əhatə dairəsinin genişləndirilməsi nəzərdə tutulub.

Azərbaycanın BMT-nin «Beynəlxalq müqavilələrdə elektron kommunikasiyaların istifadəsinə dair Konvensiya»sına qoşulması ilə bağlı tədbirlər davam etdirilir. Avropa İttifaqı ilə birgə həyata keçirilən «Azərbaycan Respublikasında elektron xidmətlərin və elektron ticarətin inkişafının gücləndirilməsi» layihəsi də elektron imzaların tanıdılması sahəsində mühüm əhəmiyyət kəsb edir. Rəqəmsal Avstriya Platformasının xüsusi nümayəndəsi Kristian Rup qeyd edib ki, «Şərq Tərəfdaşlığı» Proqramı çərçivəsində nəzərdə tutulan «elektron imza»ların qarşılıqlı tanıdılması istiqamətində müvafiq prosedurlar yekunlaşmaqdadır və tezliklə əcnəbilərə, vətəndaşlığı olmayan şəxslərə, xarici ölkədə daimi yaşayan Azərbaycan vətəndaşlarına, eləcə də hüquqi şəxslərə elektron imza sertifikatının verilməsi təmin ediləcəkdir.

**E.CƏFƏRLİ**

# Qeyri-sahibkarlıq fəaliyyəti ilə məşğul olanların vergi öhdəlikləri

Azərbaycanda qeyri-sahibkarlıq fəaliyyətindən gəlirlər Vergi Məcəlləsinin (VM) 99-cu maddəsi ilə tənzimlənir. Həmin maddəyə əsasən, qeyri-sahibkarlıq fəaliyyətindən alınan, ödəmə mənbəyində vergiyə cəlb olunmayan gəlir əldə edən və bu səbəbdən də vergi orqanında gəlir vergisinin ödəyicisi kimi uçota durmuş fiziki şəxs hesabat ili ərzində əldə etdiyi gəlirdən, yəni əldə olunan vergi tutulan gəlirlərlə bu gəlirlərin əldə olunmasına çəkilən və gəlirdən çıxıla bilən xərclərin fərqindən Vergi Məcəlləsinin 101.2-ci maddəsində göstərilən dərəcələrlə gəlir vergisi hesablamalıdır.

Qeyri-sahibkarlıq fəaliyyətindən gəlirə, həmçinin, aşağıdakılar aiddir:

- faiz gəliri;
- dividend;
- əmlakın icarəyə verilməsindən gəlir;
- royalti;
- vergi ödəyicisinə bağışlanmış borcun məbləği (VM-in 98.2.4 maddəsinə əsasən, işçinin işəgötürənə olan borcunun və ya öhdəliyinin bağışlanıldığı halda, həmin borcun və ya öhdəliyin məbləği istisna olunmaqla);
- sahibkarlıq fəaliyyəti məqsədləri üçün istifadə edilməyən aktivlərin təqdim olunmasından gəlir;
- təqvim ili ərzində alınan hədiyyə və mirasların məbləği (VM-in 98.2.2-ci maddəsinə əsasən, işəgötürənin öz işçisinə malı, işi və ya xidməti təqdim etdiyi, yaxud hədiyyə verdiyi halda, bu cür malların, işlərin və xidmətlərin bazar qiyməti ilə dəyəri istisna olunmaqla);
- vergi ödəyicisinin aktivlərinin ilkin qiymətinin artdığını göstərən hər hansı digər gəlir (əməkhaqqından başqa);
- həyatın yığım sığortası üzrə sığortaolunanın ödədiyi və ya onun xeyrinə ödənilən sığorta haqları ilə sığorta ödənişləri arasındakı fərq.

Onu da qeyd etmək lazımdır ki, sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxsin həm də qeyri-sahibkarlıq fəaliyyəti ilə bağlı gəliri ola bilər. Məsələn, sahibkar fiziki şəxs həm istehsalat sahəsində məhsul istehsal edib sata, həm də obyektini icarəyə verə bilər.

Fiziki şəxs tərəfindən əmlakın icarəyə verilməsindən və royaltidən əldə olunan, lakin ödəmə mənbəyində vergiyə cəlb edilməyən gəlirdən vergi hər hansı xərc nəzərə alınmadan gəlirin ümumi məbləğindən hesablanır. Bu verginin məbləği «Gəlir vergisinin bəyannaməsi» ilə hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanına bəyan edilir və həmin tarixdən gec olmayaraq dövlət büdcəsinə ödənilir.

Xüsusi notarius kimi fəaliyyət göstərən fiziki şəxslər isə digərlərindən fərqli qaydada fəaliyyət göstərdiyi yer üzrə vergi orqanlarında uçota alınaraq gəlir vergisinə cəlb olunurlar. Həmin şəxslər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərinə görə aldıqları haqlardan xərclər çıxılmadan 10 faiz dərəcəsi ilə (VM-in 101.4-cü maddəsi) gəlir vergisinə cəlb edilirlər, hesablanmış vergi növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilir və hər rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq «Xüsusi notariusların gəlir vergisi bəyannaməsi» ilə qeydiyyatda olduqları vergi orqanına bəyan edilir, notariat hərəkətlərinin aparılmasına və notariat hərəkətləri ilə əlaqədar göstərdikləri xidmətlərdən isə ƏDV tutulmur.

Vergilər Nazirliyi hazırda elektron ticarətdə xüsusi yer tutan kriptovalyuta əməliyyatları həyata keçirən fiziki şəxslərin də qeyri-sahibkarlıq fəaliyyətinin iştirakçıları kimi vergiyə cəlb olunması məsələsini diqqətdən keçirir. Həmin şəxslərin vergi orqanlarında uçota durması, qeyri-sahibkarlıq fəaliyyəti üzrə vergi dərəcələr tətbiq edilməsi nəzərdə tutulur.

**ELBRUS**

# Vergi sirri

**Vergi Məcəlləsində nəzərdə tutulduğu kimi, vergi sirrinin qorunmasında hər bir vergi işçisinin üzərinə ayrıca məsuliyyət düşür. Vergi qanunvericiliyinə müvafiq olaraq, vergi orqanları və onların vəzifəli şəxsləri (vergi orqanlarında işlədikləri dövrdə və ya işdən çıxdıqdan sonra) xidməti vəzifələrini yerinə yetirərkən vergi ödəyiciləri haqqında əldə etdikləri və ya onlara etibar edilən hər hansı məlumatın məxfiliyini qorumağa borcludurlar.**

Beləliklə, aşağıdakı məlumatlar istisna olmaqla, vergi orqanı və onun vəzifəli şəxsləri tərəfindən vergi ödəyicisi barədə əldə edilən istənilən məlumat vergi sirri və şəxsi həyata dair məlumat hesab olunur:

- vergi ödəyicisinin razılığı ilə aşkar edilən;
- vergi ödəyicisinin eyniləşdirmə nömrəsi haqqında;
- müəssisənin nizamnamə fondu (nizamnamə kapitalı) haqqında;
- vergi qanunvericiliyinin pozulması və bu pozulmalara görə məsuliyyət tədbirləri haqqında;
- vergi ödənişləri üzrə borclar;
- hüquqi şəxslərin dövlət reyestrindəki məlumatlar (kommersiya hüquqi şəxslərin təsisçiləri (iştirakçıları) və onların nizamnamə kapitalındakı payları barədə məlumatlar istisna olmaqla).

«Kommersiya sirri haqqında» Azərbaycan Respublikası Qanununa əsasən, vergi ödəyicisinin kommersiya sirrini təşkil edən məlumatlar və (və ya) vergi sirri vergi orqanları, onların vəzifəli şəxsləri tərəfindən, qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla, açıqlamalıdır. Kommersiya və (və ya) vergi sirrinin açılmasına əsas etibarilə, ancaq bununla məhdudlaşmayan, vergi yoxlaması zamanı vəzifələrini yerinə yetirərkən vergi orqanının vəzifəli şəxsinə, cəlb edilmiş mütəxəssisə və ya ekspertə bəlli olmuş vergi ödəyicisinin kommersiya və (və ya) vergi sirrinin istifadə edilməsi və ya başqa şəxsə verilməsi aiddir. Vergi orqanına daxil olmuş və kommersiya və (və ya) vergi sirrini təşkil edən məlumatların qorunmasının və əldə edilməsinin xüsusi rejimi vardır. Kommersiya və (və ya) vergi sirrini təşkil edən məlumatların müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən siyahı üzrə vəzifəli şəxslər əldə edə bilər.

Kommersiya və (və ya) vergi sirrini təşkil edən məlumatların itirilməsi və yaxud belə məlumatların açılması qanunla nəzərdə tutulmuş məsuliyyətə səbəb olur. Vergi orqanları və onların vəzifəli şəxsləri vergi ödəyiciləri haqqında məlumatı ancaq aşağıdakı hallarda digər orqanlara qanunvereciliklə müəyyən edilmiş qaydada verə bilərlər:

- vergi orqanlarına və onların vəzifəli şəxslərinə vergi orqanlarının vəzifələrinin həyata keçirilməsi məqsədilə;
- vergi qanunvericiliyinin cinayət tərkibli pozuntuları ilə əlaqədar onların qarşısının alınması və istintaq aparılması üçün müvafiq icra hakimiyyəti orqanına;
- inzibati xətalar və ya vergi qanunvericiliyinin cinayət tərkibli pozuntuları ilə bağlı işlərə baxılma ilə əlaqədar müvafiq məhkəmələrə;
- Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq digər dövlətlərin müvafiq dövlət hakimiyyəti orqanlarına;
- sosial müdafiə haqqında qanunların yerinə yetirilməsi üçün zəruri olan hədlərdə dövlət sosial müdafiə və tibbi sığorta fondlarına;
- gömrük qanunvericiliyinin tətbiq edilməsi məqsədləri üçün gömrük orqanlarına;
- cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması məqsədilə maliyyə monitorinqi orqanına.

Bundan başqa, vergi ödəyicisinə aid məlumat vergi ödəyicisinin yazılı icazəsi ilə digər şəxsə verilə bilər.

Dövlət hakimiyyəti orqanları və onların vəzifəli şəxsləri kommersiya və (və ya) vergi sirrini təşkil edən məlumatları əks etdirən sənədləri həmin sənədləri onlara təqdim etmiş vergi orqanlarına qaytarmalıdırlar.

*Hazırladı:*
**Rəşad SADIQOV**

# Energetik içkilərə vergi tətbiq edilməlidirmi?

## Mütəxəssislərin fikrincə, bu yolla həm əhalinin sağlamlığını qorumaq, həm də büdcəyə əlavə vəsaitin cəlb edilməsinə nail olmaq mümkündür

Son illər Azərbaycanda xüsusilə gənclər arasında energetik içkilərə maraq artıb. Hər addımbaşı rast gəldiyimiz supermarketlərdə yaş məhdudiyyəti olmadan bu içkiləri əldə etmək mümkündür. İnsan orqanizmi üçün zərərli olan bu məhsulun satışına hər hansı qadağanın olmaması isə onu daha da əlçatan edib.

Artıq bəzi ölkələrdə energetik içkilərin satışına qadağalar qoyulub və ya məhdudiyyətlər tətbiq edilib. Məsələn, 2010-cu ildə ABŞ-da kofein tərkibli spirtli enerji içkiləri tamamilə satışdan çıxarılıb. Elə həmin il Litvada energetik içkilərin yetkinlik yaşına çatmayanlara satışına qadağa qoyulub. 2015-ci ildə Rusiyanın Moskva vilayətində də eyni məhdudiyyətlər tətbiq olunub. Türkiyə, Danimarka, Norveç, Uruqvay, İslandiya, eləcə də ABŞ-nın Vaşinqton, Yuta, Oklaxoma, Miçiqan kimi ştatlarında da bu cür qadağalar mövcuddur.

Hazırda Finlandiyada energetik içkilərə vergi tətbiqi barədə düşünürlər. Uşaqların hüquqları üzrə ambudsman və ölkə parlamentinin bir qrup deputatı bu içkiləri «zərərli məhsullara vergi tətbiqi» siyahısına salmaq tələbi ilə çıxış ediblər. Artıq gələn ilin dövlət büdcəsinə bununla bağlı xüsusi aksiz vergisi əlavə oluna bilər.

Bu ilin aprel ayının 6-dan etibarən Almaniyada «şəkər vergisi» tətbiq edilir. Bu yığım barədə müzakirələrə iki il əvvəl başlanmışdı və o vaxtdan bəri ölkədə şirin içkilərin tərkibində işlədilən şəkərin miqdarı 45 milyon kiloqram azaldılıb. Qida istehsalçıları öz məhsullarının reseptinə yenidən baxaraq vergi tutulan həddi aşmamaq üçün müvafiq addımlar atıblar.

İngiltərə ictimaiyyətində «şəkər vergisi» adlandırılan qanuna əsasən, 100 millilitr içkinin tərkibindəki şəkər 5 qramı aşsa, litrbaşına 18 pens vergi tutulur. 100 millilitr içkidə istifadə edilən şəkər miqdarının 8 qramı aşması isə litrbaşına 24 pens həcmində vergi alınmasına səbəb olur.

...Paytaxtımızda fəaliyyət göstərən «Doktor Davud» Tibb Mərkəzinin direktoru Davud Qüdrətovun sözlərinə görə, hazırda şəhərin bütün mağazalarda satılan bir banka enerji verən içkinin tərkibində 0,5 litr su, 75 mq. kofein, 500 mq. taurin, şəkər, qlükoza, qlükoronolakton, rəngverici, aromatizator, limon duzu, duzluluğu tənzimləyici, karbon 4 oksid və bəzi vitaminlər var: «Əksər televiziyaların «qanadlandırıcı» kimi reklam etdiyi «XL», «Pitbull», «Rox», «Red Bull», «Hell», «Jaquar», «Blue», «Reo Line», «Monster» və s. kimi içkilər, əslində, vətəndaşlarımızın, xüsusilə gənclərimizin sağlamlığı üçün ciddi təhlükə mənbəyidir. Bu içkilər nəinki insana enerji vermir, əksinə, onun daxilindəki enerji ehtiyatını xərcləyir. Biz, gec-tez, bu enerjini yorğunluq, yuxusuzluq, əsəb və depressiya şəklində geri qaytarırıq. Belə çıxır ki, insan öz resurslarından «borc» götürür, borcu isə əvvəl-axır qaytarmalısan.

Enerjiverici içkilərin «qanadlandırması» ilə bağlı yayılan miflərlə yanaşı, zərərləri ilə bağlı faktlar da kifayət qədərdir. Xarici mətbuata bir neçə dəqiqəlik səyahət yetərlidir ki, yüzlərlə belə fakt tapasan. Məsələn, 2001-ci ildə İçveçdə 30 yaşlı Tereza diskotekada iki banka energetik içki ilə spirtli içkini qarışdıraraq içdikdən sonra ürəyi dayanıb, 18 yaşlı basketbolçu Ross Kuni isə 3 banka energetik içki qəbulundan sonra elə idman meydançasında dünyasını dəyişib. Bütün bunlar mətbuatın yazdıqlarıdır, yazmadıqları, xəbərsiz olduqları isə ...».

Araşdırmalara görə, təkcə 2005-ci ildə kofeinin həddən artıq dozada qəbulu zamanı 1000-dən artıq insan dünyasını dəyişib. 2008-ci ildə bu rəqəm 16.000-dən çox olub. Bu rəqəmlərlə tanış olduqda hər birimizdə haqlı suallar yaranır: həqiqətənmi energetik içkilər insana bu qədər güclü təsir edir, enerji verir, yoxsa bizdən pul qoparmaq üçün bu da bəzi istehsalçıların növbəti tələsidir? Doğrudanmı, biz bir banka içki ilə həyatımızı riskə atırıq?

Milli Məclisin deputatı Azər Badamov hesab edir ki, Azərbaycan bazarında enerji içkiləri birtərəfli qaydada reklam olunur, onu yalnız insana güc gətirəcək, əhval-ruhiyyəni yaxşılaşdıracaq bir qida kimi təqdim edirlər: «Dünyanın inkişaf etmiş ölkələrinin bazarlarına diqqət yetirsək, görərik ki, Almaniya, İngiltərə və ABŞ kimi ölkələr öz vətəndaşlarını enerji içkilərindən uzaqlaşmağa çağırır. Müəyyən tədbirlər görürlər ki, bu içkidən daha az istifadə olunsun. Dünya Səhiyyə Təşkilatı tərəfindən də energetik içkilərin törədəcək fəsadlar haqqında geniş danışılır. Yəni, bu içkilərin insan orqanizminə zərərini bizim səhiyyə təşkilatları da təbliğ etməlidirlər. Bildirilməlidir ki, hansı hallarda və nə qədər bu içkidən istifadə etmək olar. Çünki bizdə bu içki adi su yerinə içilir. Bunun da əsas səbəbi onun qiymətinin ucuzluğu və fəsadları haqqında vətəndaşlarımızın məlumatsız olmasıdır».

Millət vəkili onu da qeyd etdi ki, Azərbaycanda enerji içkilərinin əsas istehlakçıları yeniyetmələr və gənclərdir: «Bu içkidən istifadə etmək gənclər arasında, bir növ, dəb halını alıb. Onlar heç də düşünmürlər ki, orqanizmlərinin enerji içkisinə ehtiyacı yoxdur. Çünki gənc orqanizm kifayət qədər enerjilidir və qəbul edilən hər hansı stimulyasiyaedici vasitə onun məhvinə aparır. Biz gələcəyimiz olan gənc nəsli qorumaq istiqamətində ciddi addımlar atmalı, müxtəlif yollarla yeniyetmələrimizi zərərli vərdişlərdən, o cümlədən bu cür təhlükəli içkilərdən istifadə etməyi çəkindirməliyik. Hesab edirəm ki, çıxış yollarından biri də enerji içkilərinin idxalına, istehsalına və satışına əlavə rüsum və vergilərin tətbiq edilməsidir. Bu, həm həmin içkilərdən istifadənin miqdarını azaldar, həm də dövlət büdcəsinə əlavə vəsait gətirər...».

İlk dəfə 1929-cu ildə xəstəxanada dərman kimi istifadəsinə başlanılan energetik içkilər zaman keçdikcə enerjini bərpa edən qida məhsulu kimi reklam olunmağa başlandı. Yaponiyada 1960-cı ildən satışına start verilən bu içki qısa müddət sonra hamının istifadə edə biləcəyi enerji içkisi kimi tanıdıldı. 2000-ci illərin sonundan etibarən Avropada böyük satış bazarına sahib olan enerji içkiləri artıq dünyanın hər yerində güc artıran qida məhsulu kimi istifadə olunur.

*Hazırladı:*
**F. İKRAMQIZI**

# «ABAD»ın fəaliyyət mexanizmi təkmilləşdirilir, əhatə dairəsi genişlənir

Azərbaycan Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin («ASAN xidmət») tabeliyində publik hüquqi şəxs kimi fəaliyyət göstərən «ABAD» (Ailə Biznesinə Asan Dəstək) ölkənin sosial-iqtisadi inkişafında vətəndaşların fəal iştirakına, kiçik və orta sahibkarlığın inkişafına, əhalinin məşğulluq səviyyəsinin artırılmasına və rəqabətqabiliyyətli ailə təsərrüfatlarının formalaşdırılmasına dəstək məqsədilə yaradılıb.

Qurumun Marketinq və ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Turanə Qasımova bildirib ki, «ABAD» mərkəzləri ailə təsərrüfatlarına biznes-planlaşdırma, marketinq, brendinq və dizayn, maliyyə-mühasibat, hüquqi yardım xidmətləri göstərirlər. İstehsal olunmuş məhsulların «bir pəncərə» prinsipi üzrə sertifikatlaşdırılması, logistika işinin və satışların təşkili «ABAD» tərəfindən həyata keçirilir. İstehsal olunmuş məhsulların üzərində istehsalçı ailənin brendi ilə yanaşı, məhsulun «ABAD»ın nəzarəti altında hazırlandığını göstərən müvafiq nişan yerləşdirilir. Fəaliyyətə başladığı son iki il ərzində qurum tərəfindən bir sıra mühüm sosial layihələr həyata keçirilib ki, bu da əsasən bölgələrdə ailə təsərrüfatlarının yaradılması və inkişaf etdirilməsi istiqamətində dəstək mexanizmlərinin formalaşdırılmasıdır.

Sentyabrın 1-nə olan məlumata əsasən, hazırda ümumi sayı 281 olan «ABAD»çıların 42-si qida məhsulları istehsalı üzrə fəaliyyət göstərir. 239 ailə isə dekorativ-tətbiqi xalq sənətkarlığı ilə məşğul olur. T.Qasımovanın sözlərinə görə, respublikada 9 «ABAD» satış mərkəzi fəaliyyət göstərir: «Dekorativ-tətbiqi xalq sənətkarlığı sahəsində çalışan ailələrə dəstək çərçivəsində «İçərişəhər» Dövlət Tarixi-Memarlıq Qoruğunda, Heydər Əliyev Beynəlxalq Hava Limanında, Bakı dəmiryol vağzalının ərazisində, Şamaxı rayonunun Dəmirçi kəndində, «Fairmont Baku» hotelində, 3 saylı «ASAN xidmət»də, Milli Gimnastika Arenasında (beynəlxalq yarışlar zamanı), Qəbələ rayonunun Durucu kəndi ərazisində fəaliyyət göstərən «Tufandağ» dağ-xizək kurortunda, Şəki rayonu «Yuxarı Baş» Dövlət Tarix-Memarlıq Qoruğunda «ABAD» sərgi-satış mərkəzləri açılıb. Həmin mərkəzlərdə Azərbaycanın müxtəlif regionlarından sənətkar ailələrinin əl işləri, müxtəlif qida və mürəbbə məhsulları satışa çıxarılıb».

Hazırda ölkə üzrə 3 rayonda: Masallı, Balakən və Qubada regional mərkəzlər fəaliyyət göstərir. Qubada açılan «ABAD» Sənətkarlıq Məktəbində xalçaçılıq, tətbiqi incəsənət və nəzəri kurslar olmaqla, üç istiqamət üzrə dərslər keçilir. Ölkənin şimal regionunda «ABAD»çı ailələrin sayının artırılması istiqamətində maarifləndirmə işləri aparılır, müxtəlif təlimlər, o cümlədən ərzaq məhsullarının istehsalı ilə məşğul olan ailə təsərrüfatları üçün biznes-planlaşdırma, marketinq, maliyyə-mühasibat kimi sahələrdə nəzəri kurslar təşkil edilir.

İlin sonunadək İmişli və Şəki «ABAD» regional mərkəzlərinin, İmişli «ABAD» sənətkarlıq və Şəki «ABAD» qida istehsalı məktəblərinin, Quba «ABAD» Factory-İstehsalat Kompleksinin, Şəki və Nardaran keramika mərkəzlərinin açılacağı planlaşdırılır.

**FƏXRİYYƏ**

# Azərbaycanın valyuta ehtiyatları artır

Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrin icrasına həsr olunmuş iclasında Prezident İlham Əliyevin bildirdiyi kimi, Azərbaycanın valyuta ehtiyatları onun iqtisadi və siyasi müstəqilliyini şərtləndirən əsas strateji vasitədir. Yəni hər bir dövlətin valyuta ehtiyatları onun iqtisadi və siyasi müstəqilliyinin bir növ təminatçısıdır.

Bu ilin birinci yarısına olan vəziyyətə görə, Azərbaycanın valyuta ehtiyatları 44,3 milyard dollar təşkil edib, ilin sonuna qədər bu rəqəmin daha da böyüyəcəyi proqnozlaşdırılır. 2018-ci il iyulun 1-nə Dövlət Neft Fondunun (ARDNF) aktivləri ilin əvvəlinə (35 mlrd. 806,5 mln. ABŞ dolları) nisbətən 6,22% artaraq 38 mlrd. 36,1 mln. ABŞ dolları təşkil edib ki, aktivlər üzrə bu göstərici Fondun ümumi fəaliyyəti dövrü ərzində ən yüksək hədd hesab olunur. Bu artım ARDNF-nin büdcə gəlirləri, o cümlədən vəsaitlərin idarə olunmasından əldə edilən gəlirlər hesabına baş verib. Sözügedən dövr ərzində Fondun vəsaitinin idarə olunmasından əldə edilən gəlirlər 508,0 mln. manata bərabər olub, büdcə gəlirləri 9 mlrd. 173,7 mln. manat, xərcləri isə 4 mlrd. 731,6 mln. manat təşkil edib. Ümumilikdə isə son on ildə ARDNF-nin aktivləri 24 milyard 588 milyon ABŞ dolları həcmində artıb.

Azərbaycan Mərkəzi Bankının sərəncamında olan rəsmi valyuta ehtiyatlarının həcmi isə bu il sentyabrın 1-i vəziyyətinə görə 5 milyard 503,5 milyon dollar olub ki, bu göstərici də ilin əvvəli ilə müqayisədə 168,9 milyon dollar çoxdur.

Hesablamalara görə, Azərbaycanın valyuta ehtiyatları ölkənin ümumi daxili məhsulundan təxminən 12-13% çox olmaqla beş illik idxalı maliyyələşdirməyə imkan verir.

**RƏŞAD**

## BİR CÜMLƏ - BİR XƏBƏR

Bu il oktyabrın 31-də Bakıda Rəqəmsal Ticarət Qovşağına dair ikinci beynəlxalq konfrans keçiriləcək.

Sentyabrın 12-də paytaxtımızda Azərbaycan–Çexiya biznes forumu öz işinə başlayacaq.

Azərbaycan Cənubi Afrika Respublikasının Durban şəhərində keçirilən «ITU Telecom World 2018» sərgi-konfransında təmsil olunur.

Oktyabrın 21-25-də Parisdə təşkil ediləcək «Sial Paris» sərgisində Azərbaycan şirkətləri də iştirak edəcəklər.

Qazaxıstanın Almatı şəhərində keçirilən «KazBuild 2018» inşaat və tikinti materialları sərgisində Azərbaycan məhsulları «Ən yaxşı debüt» mükafatına layiq görülüb.

Sentyabrın 19-22-də Belarus Respublikası Maliyyə Nazirliyinin səlahiyyətli nümayəndə heyəti Azərbaycana işgüzar səfərə gələcək.

## İŞƏGÖTÜRƏNLƏRİN NƏZƏRİNƏ!

### Əmək müqaviləsinin rəsmiləşdirilməsi

İşəgötürən ona məxsus iş yerində haqqı ödənilməklə çalışan fiziki şəxslə ilkin olaraq fərdi qaydada yazılı əmək müqaviləsi (kontrakt) bağlamalı, bundan sonra əmək müqaviləsinin məlumatlarını Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sisteminə daxil edərək onun hüquqi qüvvəyə minməsi üçün müvafiq bildiriş əldə etməlidir.

Əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə daxil edilməsi üçün işəgötürənin və ya onun səlahiyyət verdiyi şəxsin gücləndirilmiş elektron imzası, o cümlədən «ASAN imza»sı olmalıdır. «ASAN imza» SİM kartını mobil operatorların («Azercell», «Bakcell», «Nar Mobile») nümayəndəliklərindən əldə edib, vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət etməklə «ASAN imza» sertifikatı ala bilərsiniz.

**İşəgötürən tərəfindən əmək müqaviləsi hüquqi qüvvəyə minmədən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb olunması qanunvericiliklə müəyyən edilmiş məsuliyyətə səbəb olur:**

| Qanun pozuntuları | Məsuliyyət tədbirləri |
|---|---|
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürənlər tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə (azaldılmasına) şərait yaradıldığına görə (Vergi Məcəlləsi, maddə 58.10) | hər bir belə işçi üzrə **1.000 manat** məbləğində maliyyə sanksiyası tətbiq edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxsləri hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (İnzibati Xətalar Məcəlləsi, maddə 192.1) | fiziki şəxslər **1.000 manatdan** **2.000 manatadək** miqdarda, vəzifəli şəxslər **3.000 manatdan 5.000 manatadək** miqdarda, hüquqi şəxslər **20.000 manatdan 25.000 manatadək** miqdarda inzibati cərimə edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən xeyli sayda (yəni 10 nəfər və ondan çox olan) işçilərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (Cinayət Məcəlləsi, maddə 162-1.1)<br><br>Eyni əməllər təkrar törədildikdə (Cinayət Məcəlləsi, maddə 162-1.2) | **7.000** manatdan **10.000** manatadək miqdarda cərimə və ya **2 ilədək müddətə islah işləri** və ya **2 ilədək müddətə azadlığın məhdudlaşdırılması** və ya **2 ilədək müddətə azadlıqdan məhrumetmə** ilə cəzalandırılır.<br><br>**3 ilədək müddətə azadlığın məhdudlaşdırılması** və ya **3 ildən 7 ilədək müddətə azadlıqdan məhrumetmə** ilə cəzalandırılır. |

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

**Əlavə məlumatı www.taxes.gov.az və www.e-gov.az saytlarından, vergi ödəyicilərinə xidmət mərkəzlərindən və «195-1»Çağrı Mərkəzindən əldə edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

### Əmək müqaviləsinin rəsmiləşdirilməsi

İşə qəbul olunarkən işəgötürənlərdən əmək müqaviləsinin bağlanmasını tələb edin. Əmək müqaviləsi ilk növbədə sosial maraqlarınızın təmin olunmasına xidmət edir və rəsmiləşdirilməmiş əmək fəaliyyətinə razılaşmaqla Siz gələcəkdə dövlətin sosial təminatından və bir sıra üstünlüklərdən məhrum olursunuz.

| İşçinin hüquqları və üstünlükləri | Əmək müqaviləsi ilə fəaliyyət göstərdikdə | Əmək müqaviləsiz fəaliyyət göstərdikdə |
|---|---|---|
| 8 saatlıq iş hüququ | ✓ | ✘ |
| Əmək məzuniyyətindən istifadə hüququ | ✓ | ✘ |
| Peşə-əmək qabiliyyətinin itirilməsi hallarında icbari sığorta hüququ | ✓ | ✘ |
| Xəstəlik və işdənçıxma müavinətinin tam həcmdə alınması hüququ | ✓ | ✘ |
| Gələcəkdə layiqli əmək pensiyasının alınması imkanı | ✓ | ✘ |
| İpoteka və digər kreditləri almaq imkanı | ✓ | ✘ |
| Məhkəmədə hüquqların müdafiəsi | ✓ | ✘ |

İşəgötürənlə əmək müqaviləsi bağlamaqla və rəsmi əməkhaqqı ödəməyi tələb etməklə Siz gələcəyinizi indidən düşünmüş olursuz. Unutmayın ki, Sizə ödənilən rəsmi əmək haqları - sabah üçün sabit sosial təminatınızın təməlidir!

**Bununla bağlı hüquqlarınız pozularsa, vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya «195-1» Çağrı Mərkəzinə müraciət edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Sosial imtiyazlı şəxslərə kvota üzrə iş yerləri ayrılacaq

## «Məşğulluq haqqında» Qanuna dəyişikliklər işsizlər və işaxtaranlar üçün yeni imkanlar vəd edir

**Prezident İlham Əliyevin 29 iyun 2018-ci il tarixli fərmanı ilə təsdiq olunmuş «Məşğulluq haqqında» Qanun bu sahədə idarəetmə mexanizmlərinin işə salınması üçün bir sıra yeni imkanlar yaradır:**

- Sosial-iqtisadi inkişaf prosesləri, aparılan köklü islahatların məşğulluğa və əmək bazarına təsirinin artması;
- Aktiv məşğulluq tədbirlərinin miqyasının genişlənməsi;
- Özüməşğulluq proqramının icrası, məşğulluq xidmətlərində, işsiz və işaxtaran vətəndaşların sosial müdafiəsinin gücləndirilməsində yeni yanaşmalar;
- Əhalinin məşğulluğunun artırılmasına yönəlik tədbirlərdə mütərəqqi iş mexanizmlərinin tətbiqi;
- İşsizlikdən sığorta sisteminin qurulması.

İndiyə qədər qüvvədə olmuş qanuna əsasən, muzdla işləyən şəxslər sırasına haqqı ödənilən başqa işi (xidməti) olanlar, yəni mülki hüquqi xarakterli müqavilə ilə işləyənlər də daxil olduğu halda, yeni qanunda bu aradan qaldırılıb. Muzdla işləyənlərə yalnız Əmək Məcəlləsinə uyğun olaraq işəgötürənlə əmək müqaviləsi (kontrakt) bağlayaraq, müvafiq iş yerlərində əmək fəaliyyətini əməkhaqqı müqabilində yerinə yetirən şəxslər aid edilib. Mülki-hüquqi xarakterli müqavilələrlə işləyənlər isə məşğul şəxslər sırasında yer alıb. Daha bir yenilik isə ailə-kəndli təsərrüfatının üzvlərinin məşğul şəxslər hesab edilməsidir.

Yeni qanunda «işsiz» və «işaxtaran» şəxslər anlayışları dəqiqləşdirilib. Yəni iş yeri və qazancı olmayan, işə başlamağa hazır olub işsiz kimi qeydiyyata alınan, əmək qabiliyyətli yaşda olan əmək qabiliyyətli şəxs işsiz şəxs hesab edilir. İşaxtaran isə münasib iş üçün məşğulluq mərkəzlərinə müraciət edən və işaxtaran kimi qeydiyyata alınan şəxs kimi qeyd olunub.

### Boş iş yerlərinin elektron bankı yaradılır

Qanundakı yeniliklərdən biri də məşğulluq xidmətlərinin, əsasən, elektron müstəvidə təşkil edilməsidir. Məsələn, qanun məşğul şəxslərin vahid informasiya bazasının yaradılması üçün onların reyestrinin elektron formada aparılmasını (dövlət orqanlarının və digər qurumların elektron informasiya ehtiyatlarından istifadə edilməklə), işəgötürənin boş olan və işçi tələb edilən iş yerləri, habelə yeni yaradılan iş yerləri üzrə elektron informasiya ehtiyatı kimi vakansiya bankının yaradılmasını nəzərdə tutur. Qanuna əsasən, işsiz və işaxtaran şəxslərin qeydiyyata alınması proseduru da elektron qaydada həyata keçiriləcək.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən məlumata görə, iş üçün müraciət edən şəxsə münasib iş təklifi üzrə müddət 11 gündən 5 günə endirilib, işsiz və işaxtaran şəxslərin qeydiyyata alınması və ya müvəqqəti qeydiyyatdan çıxarılması, qeydiyyatının ləğvi və digər prosedurlar qanunda dəqiq müəyyən edilib. Sənədə əsasən, ölkədə işaxtaran və işsiz şəxslərin işə düzəlməsində, habelə Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə işə düzəlməsində vasitəçilik fəaliyyəti yalnız hüquqi şəxslər tərəfindən həyata keçirilə bilər. Digər tərəfdən, yeni qanun belə fəaliyyətlə məşğul olan hüquqi şəxslərin reyestrinin də elektron formada aparılmasını nəzərdə tutur.

Dövlətin işaxtaranlar və işsiz şəxslər üçün təminatları sırasında özüməşğulluğa kömək göstərilməsi də qeyd olunur. Sənəddə özüməşğulluq tədbirlərinin mərhələləri və müddətləri, monitorinq, əmlakların qaytarılması və digər prosedurlar əhatə olunur. Kənd təsərrüfatına yararlı torpaq payı olub digər məşğulluğu olmayan şəxslər də 1 il ərzində özüməşğulluğa cəlb edilmiş işsiz şəxslərin ümumi sayının 50 faizindən çox olmamaq şərtilə özüməşğulluğa cəlb edilə bilər. İşsiz şəxslərin özüməşğulluğunun təşkili zamanı ünvanlı dövlət sosial yardımı alan şəxslərə, əlilliyi olanlara və sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara, bir ildən artıq işsiz kimi qeydiyyatda olanlara, pensiya yaşına iki ildən az qalmış şəxslərə, cəzaçəkmə yerlərindən azad edilmiş işsiz şəxslərə üstünlük verilir.

«Fərdi məşğulluq proqramı»na gəlincə, qanunda işsiz kimi qeydiyyata alınmış şəxsin əmək bazarına yenidən qayıtması və ona işə düzəlməkdə kömək göstərilməsi məqsədilə məşğulluq mərkəzi tərəfindən fərdi məşğulluq proqramının tərtib olunmasını nəzərdə tutur. Qanunda, həmçinin, məşğulluq sahəsində dövlətin vəzifələri, şəxslərin hüquqları, əmək hüququnun həyata keçirilməsində dövlət təminatları, sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslərin məşğulluğu üçün əlavə təminatlar, respublika və ərazi məşğulluq proqramlarının hazırlanması, işaxtaran və işsiz şəxslərin peşə hazırlığı, haqqı ödənilən ictimai işlərin təşkili kimi məsələlər də tənzimlənir.

### Əlillər, çoxuşaqlı valideynlər, keçmiş məhbuslar, məcburi köçkünlər...

Yeni qəbul olunmuş qanunda sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin kateqoriyaları müəyyən edilib. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən məlumata görə, həmin kateqoriyaya əlilliyi olan şəxslər və sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar, 20 yaşadək gənclər, yetkinlik yaşına çatmamış uşaqları tərbiyə edən tək və çoxuşaqlı valideynlər, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqları tərbiyə edən valideynlər, pensiya yaşına 2 ildən az qalmış şəxslər, cəzaçəkmə yerlərindən azad edilmiş şəxslər, məcburi köçkünlər daxil edilib.

Qanunda bu təbəqədən olan insanların məşğulluğu üçün əlavə təminatlar da əksini tapıb. Təminatlardan biri də iş yerləri üzrə onlar üçün kvota müəyyən edilməsidir. Qanuna əsasən, kvotanın miqdarı müvafiq inzibati ərazi vahidində əmək bazarındakı vəziyyətdən asılı olaraq, müəssisələrdəki işçilərin orta siyahı sayının 5 faizindən çox olmamaq şərtilə müəyyən edilir.

Məşğulluq mərkəzi tərəfindən göndərilmiş sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxsləri onlar üçün kvota üzrə müəyyən olunmuş iş yerlərinə qəbul etməyən işəgötürənlər isə qanunla müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

**E. SALAHOV**

## 2018-ci ilin sentyabr ayı ərzində vergi orqanına təqdim edilməli bəyannamələr və ödənilməli VERGİLƏR

**2018-ci ilin avqust ayına görə vergi ödəyiciləri tədiyyəçisi olduqları**

- Əlavə dəyər vergisi bəyannaməsini;
- Aksiz bəyannaməsini;
- Yol vergisi bəyannaməsini;
- Mədən vergisi bəyannaməsini;
- Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş verginin bəyannaməsini;
- Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsini

**cari ilin sentyabr ayının 20-dən gec olmayaraq** vergi orqanına təqdim etməli və hesablanmış vergiləri həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

- **Daşınmaz əmlak** təqdim edən şəxslərdən ödəmə mənbəyində tutulan sadələşdirilmiş verginin bəyannaməsi notariuslar tərəfindən **cari ilin sentyabr ayının 20-dən gec olmayaraq** vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).

- **Muzdlu işlə əlaqədar 2018-ci ilin avqust ayı üzrə ödəmə mənbəyində hesablanaraq tutulan vergi cari ilin sentyabr ayının 20-dən gec olmayaraq** dövlət büdcəsinə ödənilməlidir (ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri tərəfindən bəyannamə illik - növbəti ildə yanvar ayının 31-dən gec olmayaraq, digər vergi ödəyiciləri tərəfindən 3-cü rüb üzrə bəyannamə cari ilin oktyabr ayının 22-dən gec olmayaraq təqdim edilməlidir).
- **Xüsusi notariusların 2018-ci ilin avqust ayı üzrə hesabladıqları gəlir vergisi cari ilin sentyabr ayının 20-dən gec olmayaraq** dövlət büdcəsinə ödənilməlidir (3-cü rüb üzrə bəyannamə cari ilin oktyabr ayının 22-dən gec olmayaraq təqdim edilməlidir).

**Qeyd: 20.10.2018-ci il tarixi qeyri-iş gününə təsadüf etdiyindən, 2018-ci ilin 3-cü rübü üzrə bəyannamələrin təqdim edilməsinin son müddəti 22.10.2018-ci il tarixinə keçirilmişdir.**

**Hörmətli vergi ödəyiciləri, siz öz bəyannamələrinizi və hesablanmış vergiləri Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi Portalı (https://www.e-taxes.gov.az) vasitəsilə elektron qaydada da təqdim edə və ödəyə bilərsiniz. Vergi öhdəliklərinizi vaxtında yerinə yetirməyi tövsiyə edirik.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Gəlir vergisi

Rezident və qeyri-rezident fiziki şəxslər gəlir vergisinin ödəyiciləridir. Rezident fiziki şəxslərin gəliri onların respublika daxilində və xaricində əldə etdiyi, qeyri-rezident fiziki şəxsin gəliri isə onun Azərbaycan mənbəyində əldə etdiyi gəlirlərdən ibarətdir.

## Muzdlu işlə əlaqədar gəlirlər

Muzdlu iş dedikdə, əmək qanunvericiliyinə uyğun olaraq, müqavilə əsasında haqqı ödənilməklə yerinə yetirilən əmək fəaliyyəti başa düşülür. Fiziki şəxs tərəfindən muzdlu işlə əlaqədar alınan gəlirə əməkhaqqı, bu işdən alınan hər hansı ödəmə və ya fayda aiddir (Cədvəl 1). Fiziki şəxslərin əmək kitabçasının olduğu əsas iş yerində hər hansı muzdlu işlə əlaqədar əldə edilən aylıq gəliri 2500 manatadək olduqda ölkə üzrə yaşayış minimumunun 1 misli məbləğində olan hissəsi (2018-ci il üzrə 173 manat) azaldılır. İki və ya daha çox yerdə muzdla işləyən fiziki şəxslərin gəlirlərindən gəlir vergisi hər bir iş yerində ödənilən məbləğdən ayrıca hesablanır və dövlət büdcəsinə ödənilir.

**Cədvəl 1. Muzdlu işlə əlaqədar əldə edilən aylıq gəlirdən tutulan vergi dərəcələri:**

| Vergi tutulan aylıq gəlirin məbləği | Verginin məbləği |
|---|---|
| 2500 manatadək olduqda | 14 faiz |
| 2500 manatdan çox olduqda | 350 manat + 2500 manatdan çox olan məbləğin 25 faizi |

Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən vergi ödəyiciləri onların aylıq gəlirini hesablayaraq yuxarıda göstərilən dərəcələrə uyğun qaydada ödəmə mənbəyində gəlir vergisi tutmalı və növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməli, ödəmə mənbəyində tutulan vergilər barədə bəyannaməni isə ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri hesabat ilindən sonrakı ilin yanvar ayının 31-dən gec olmayaraq, digərləri isə gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim etməlidirlər.

## Muzdlu işə aid olmayan fəaliyyətdən gəlirlər

Muzdlu işə aid olmayan fəaliyyətdən gəlirlərə sahibkarlıq və qeyri-sahibkarlıq fəaliyyətindən əldə olunan gəlirlər aiddir. Sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslərin təqvim ili ərzində ümumi gəlirindən bu gəlirin əldə edilməsi ilə əlaqədar çıxılan xərclərin fərqindən 20 faiz dərəcə ilə vergi tutulur. Bununla belə, fərdi sahibkarlar rüb qurtardıqdan sonra 15 gündən gec olmayaraq cari ödəmələri dövlət büdcəsinə ödəməli, hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanlarına gəlirləri haqqında bəyannamə verməli və həmin vaxtadək illik gəlir üzrə son hesablama aparmaqla (cari ödəmələr nəzərə alınmaqla) gəlir vergisini dövlət büdcəsinə ödəməlidirlər.

Qeyri-sahibkarlıq fəaliyyətindən əldə olunan gəlirlərin vergiyə cəlb edilməsi üçün xüsusi notariuslar vergitutma obyektindən xərclər çıxılmadan 10 faiz dərəcə ilə gəlir vergisi hesablamalı, hesablanmış vergi məbləğini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməli, «Xüsusi notariusun gəlir vergisi bəyannaməsi»ni isə hər rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim etməlidirlər.

**Cədvəl 2. Qeyri-sahibkarlıq fəaliyyətindən əldə edilən digər gəlirlər aşağıdakı dərəcələrlə vergiyə cəlb olunur**

| Vergi tutulan illik gəlirin məbləği | Verginin məbləği |
|---|---|
| 30.000 manatadək | 14 faiz |
| 30.000 manatdan çox olduqda | 4200 manat + 30.000 manatdan çox olan məbləğin 25 faizi |

3 ildən az olmayan müddətə bağlanılan, lakin vaxtından əvvəl xitam verilən həyatın yığım sığortası və pensiya sığortası müqaviləsi üzrə sığorta haqlarından, qeyri-dövlət fondlarının ödədiyi pensiyalardan, habelə vergi uçotunda olmadan, VÖEN təqdim edilmədən göstərilən iş və xidmətlərə görə fiziki şəxsə ödənilən gəlirdən də aylıq gəlirdən tutulan vergi dərəcələri ilə həmin gəliri ödəyən şəxslər tərəfindən müvafiq qaydada ödəmə mənbəyində vergi tutulur.

Dividendlərdən, faizlərdən, idman oyunları ilə əlaqədar aparılan mərc oyunlarından uduşlardan, lotereyaların keçirilməsindən, habelə digər yarışlardan və müsabiqələrdən əldə olunan gəlirdən (mükafatdan) və pul şəklində uduşlardan (mükafatlardan) ödəmə mənbəyində 10 faiz, həmçinin icarə haqlarından və royaltidən 14 faiz dərəcə ilə müvafiq qaydada ödəmə mənbəyində vergi tutulur. Bu zaman dividend, faiz, icarə haqqı, royalti, daşınmaz əmlakın təqdim edilməsindən əldə olunan gəlirlər və idman mərc oyunlarından əldə edilən uduşlar digər vergi tutulan gəlirdən çıxılır və bir daha vergiyə cəlb olunmur (Cədvəl 2).

## Gəlir vergisindən azadolmalar

Fiziki şəxslərin bir sıra gəlirlərindən gəlir vergisi tutulmur. Rotasiya qaydasında xaricə ezamiyyəyə göndərilən diplomatik xidmət əməkdaşlarının və diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən şəxslərin, respublikanın xarici ölkələrdə fəaliyyət göstərən səfirlik və konsulluqlarında ticarət nümayəndələrinin, konsulluq əməkdaşlarının rəsmi məşğulluğundan gəlir vergisindən azaddır.

Respublikanın rezidenti olmayan şəxsin iş yerindən gəlir - əgər bu gəlir respublikanın rezidenti olmayan işə götürən tərəfindən, yaxud onun adından ödənilirsə və qeyri-rezidentin daimi nümayəndəliyi tərəfindən və ya onun adından, yaxud daimi nümayəndəlikdə fəaliyyəti ilə əlaqədar ödənilmirsə - gəlir vergisindən azaddır.

Təqvim ili ərzində alınan hədiyyələrin, təhsil və ya müalicə haqlarını ödəmək üçün maddi yardımın, birdəfəlik müavinətin dəyərinin 1.000 manatadək olan hissəsi, xaricdə müalicə haqlarını ödəmək üçün maddi yardımın dəyərinin 2.000 manatadək olan hissəsi, mirasların dəyərinin 20.000 manatadək olan hissəsi vergidən azaddır. Hədiyyə, maddi yardım və miras vergi ödəyicisinin ailə üzvlərindən alındığı halda, onun tam dəyəri vergidən azaddır.

Alimentlər, qiymətli daşlardan və metallardan, qiymətli daşlar və metalların məmulatlarından, incəsənət əsərlərindən, əntiq əşyalardan və vergi ödəyicisinin sahibkarlıq fəaliyyətində istifadə edilən və ya istifadə edilmiş əmlakından başqa, daşınan maddi əmlakın təqdim edilməsindən gəlir, sığorta hadisəsi baş verdikdə sığorta olunanın və faydalanan şəxsin həyatına, habelə onun əmlakın və ya əmlak mənafelərinə dəymiş zərərin əvəzini ödəmək üçün pul və ya natura şəklində ödənilmiş vəsait gəlir vergisindən azad olunanlar sırasındadır.

Həmçinin, dəymiş zərərlərin ödənilməsi ilə bağlı alınan kompensasiya ödənişləri, bilavasitə kənd təsərrüfatı məhsullarının istehsalından alınan gəlirlər, sənətkarlıq sahəsində fəaliyyət göstərən fiziki şəxslərin gəliri, kompensasiya xarakterli müxtəlif ödənişlərə bu vergi şamil edilmir. Hərbi qulluqçulara, prokurorluq orqanlarının prokurorluq işçilərinə və prokurorluq işçiləri olmayan hərbi qulluqçularına, hüquq-mühafizə orqanlarının xüsusi rütbəsi olan əməkdaşlarına ödənilən bütün növ əməkhaqqı, mükafat və digər maddi təminatlara da gəlir vergisi aid deyil.

01.02.2016-cı il tarixdən etibarən 7 il müddətində yerli bank və xarici bankın Azərbaycan Respublikasında fəaliyyət göstərən filialı tərəfindən fiziki şəxslərin əmanəti üzrə ödənilən illik faiz gəlirləri, habelə emitent tərəfindən investisiya qiymətli kağızları üzrə ödənilən dividend, diskont faiz gəlirləri, investisiya təşviqi sənədini almış fərdi sahibkarın həmin sənədi aldığı tarixdən 7 il müddətinə əldə etdiyi mənfəətin 50%-i də gəlir vergisindən azaddır.

## Vergi güzəştləri

Milli qəhrəmanların, Sovet İttifaqı və Sosialist Əməyi qəhrəmanlarının, müharibə əlillərinin, həlak olmuş, yaxud sonradan vəfat etmiş döyüşçülərin dul arvadlarının (ərlərinin), 1941-1945-ci illərdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallar ilə təltif edilmiş şəxslərin, müharibə veteranı adı almış şəxslərin, atom obyektlərində radiasiya nəticəsində şüa xəstəliyinə və şüa yükü ilə əlaqədar xəstəliyə tutulmuş və ya bu xəstəlikləri keçirmiş şəxslərin hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri 400 manat məbləğində azaldılır. I və II qrup əlillərin (müharibə əlillərindən başqa), sağlamlıq imkanları məhdud 18 yaşadək şəxslərin hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri 200 manat məbləğində azaldılır.

Bir qrup fiziki şəxsin hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri 100 manat məbləğində azaldılır. Bunlar həlak olmuş, yaxud sonradan vəfat etmiş döyüşçülərin valideynləri, habelə vəzifələrinin icrası zamanı həlak olmuş dövlət qulluqçularının valideynləri və təkrarən nikaha girməmiş arvadları (ərləri), 1990-cı il yanvarın 20-də SSRİ qoşunlarının müdaxiləsi nəticəsində, habelə respublikanın ərazi bütövlüyünün müdafiəsi zamanı həlak olmuş şəxslərin valideynləri və təkrarən nikaha girməmiş arvadları (ərləri), Əfqanıstana və döyüş əməliyyatları aparan başqa ölkələrə göndərilmiş hərbi qulluqçular və ya təlim-yoxlama toplanışlarına çağırılmış hərbi vəzifəlilər, daimi qulluq tələb edən sağlamlıq imkanları məhdud uşağa və ya I qrup əlilə baxan və onunla birlikdə yaşayan valideynlərdən biri (özlərinin istəyi ilə), arvad (ər), himayəçi və ya qəyyum, ayrıca mənzil sahəsi əldə etməsi nəticəsində daimi məskunlaşmamış məcburi köçkünlər və onlara bərabər tutulan şəxslərdir.

Əməkhaqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin vergi güzəştləri hüququ qanunla müəyyən edilmiş sənədlərin təqdim edildiyi andan yaranır və yalnız fiziki şəxsin əsas iş yerində (əmək kitabçasının olduğu yerdə) həyata keçirilir.

*Hazırladı:*
**F. İKRAMQIZI**

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən korrupsiya və digər hüquqpozma hallarına yol verildiyi ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;
* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik departamentinə» qeydi olan məktubları göndərməklə. Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;
* Daxili təhlükəsizlik departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə. Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik departamenti;
* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

beynəlxalq panoram

# Qarşılıqlı şəkildə tətbiq edilən əlavə vergilər münasibətləri gərginləşdirir

ABŞ ilə Avropa İttifaqı ölkələri, eləcə də Türkiyə və Çin arasında bəzi mallara əlavə idxal rüsumlarının tətbiqi artıq dünyanın iqtisadi tarazlığına öz təsirini göstərməkdədir. Bunun təzahürlərindən biri də tətbiq olunan əlavə vergilərin avtomobil sənayesinə öz təsirini göstərməyə başlamasıdır. ABŞ dövlətinin sanksiyalarına cavab olaraq Türkiyənin ABŞ-da istehsal edilən modellər üçün əvvəlcə 60, sonra isə 120 faiz əlavə vergi tətbiq etməsi ən çox BMW-nin bahalı modellərinin və «Tesla» avtomobillərinin idxalına təsir göstərmişdir.

Vergilər yüksək olduğuna görə «Borusan Oto» şirkətinin idxal etdiyi BMW-nin X modellərinin qiymətləri 2,5 milyon lirəyə qalxmış, sifarişlər ləğv edilmiş və idxal əməliyyatları dayandırılmışdır. Elektriklə işləyən və Türkiyədə rəğbət görməyə başlayan ABŞ mənşəli «Tesla» avtomobili üçün sifarişlər də eyni şəkildə dayandırılmış, avtomobillər sərhəd gömrük məntəqələrindən istehsalçıya qaytarılmışdır.

Türkiyədə istehsal edilən «Toyota», «Ford» və «Fiat» markalı avtomobillərin ABŞ-a ixracı isə hələlik problemsiz şəkildə davam edir. Keçən il Amerikaya Türkiyədən 1,4 milyard dollar dəyərində avtomobil ixrac edilmişdir. Bu sektorun təmsilçiləri Türkiyədən gətirilən avtomobillərə ABŞ-da əlavə vergi qoyulacağını gözləmədiklərini və buna görə də ixracatda ciddi geriləmə olmayacağını proqnozlaşdırdıqlarını bildirmişlər.

Çinlə ABŞ arasındakı gərginlik də getdikcə artmaqdadır. Donald Tramp avqustun 23-dən 16 milyard dollar dəyərində Çin məhsullarına əlavə gömrük vergisi tətbiq etmişdir: artıq Çindən idxal edilən yarımfabrikat məhsullar, motosikletlər və elektriklə işləyən motorollerlər kimi ümumilikdə 279 adda məhsul üçün əlavə 25 faizlik gömrük vergisi tutulur. ABŞ-ın bu qərarına cavab olaraq Çin Dövlət Şurası da eyni addımı atacağını bildirmişdir. ABŞ-dan Çinə gətirilən 16 milyard dollar dəyərində neft və polad məhsulları, avtomobillər və təbabət məhsulları üçün eyni vergi tətbiq ediləcək.

Çinin ticarət naziri Zonq Şan isə hökumət adından açıqlama verərək ABŞ-ın yeni gömrük vergilərinə «tərəddüdsüz şəkildə qarşı olduğunu», öz ölkəsinin bu məsələ ilə bağlı Dünya Ticarət Təşkilatına şikayət edəcəyini, eləcə də ABŞ-ın hərəkətlərinə eyni şəkildə cavab veriləcəyini bildirmişdir.

# Amerikalı sahibkar qadınlar iqtisadi vəziyyətə nikbin yanaşırlar



ABŞ-da bizneslə məşğul olan qadınların sayı getdikcə artır. İndi ölkədə 12 milyondan artıq müəssisəyə qadınlar rəhbərlik edir. Kiçik Biznes Assosiasiyasının məlumatına əsasən, bu müəssisələrin yaratdığı illik satış həcmi 2,4 trilyon dollara çatır. «Bank of America»nın apardığı sorğunun nəticələrinə görə, müəssisə rəhbəri olan qadınların 58 faizi gələn il də gəlirlərinin artacağını gözləyirlər. Keçən il isə sorğuda nikbinlik nümayiş etdirənlərin nisbəti bundan az - 44 faiz olmuşdu.

Rəyi soruşulmuş qadın biznes rəhbərlərinin yarıdan çoxu qarşıdakı beş il ərzində öz bizneslərini genişləndirməyi planlaşdırır, 20 faizdən çoxu isə gələn il muzdla işə cəlb edilən işçilərin sayını artırmaq niyyətindədir. Sorğuda iştirak edənlərin yarısı regionlardakı iqtisadiyyatın da milli iqtisadiyyatla eyni səviyyədə inkişaf edəcəyinə inandığını qeyd etmişdir.

Qadınlar öz fəaliyyətlərində müasir texnologiyaların tətbiqinə də münasibət bildirmişlər. Onların 33 faizi müxtəlif mobil ödəniş sistemlərindən böyük həvəslə istifadə edirlər. Kişilər arasında isə bu göstərici 28 faiz təşkil edir. Bundan əlavə, sahibkar qadınlar 3D çapı, virtual gerçəklik kimi qabaqcıl texnologiyaları fəal şəkildə mənimsəyirlər. Qadınlardan 70 faizinin rəyinə əsasən, texnologiyalar onlara biznes fəaliyyətində nailiyyət qazanmağa yardımçı olur.

Ümumilikdə nikbin mövqe nümayiş etdirdiklərinə baxmayaraq, amerikalı qadınların, demək olar ki, hamısı bir fikirdə həmrəydirlər: ABŞ-da qadınların biznesə başlaması kişilərlə müqayisədə daha çətindir. Onların qarşılaşdıqları ən böyük çətinlik başlanğıc kapitalı əldə etmək üçün bankda hesab açdırmaqdır. Qadınların təqdim etdikləri biznes planları daha dəqiqliklə yoxlanılır. Bundan əlavə, biznesə başlayan qadınları biznes təlimlərinə daha çox göndərirlər.

Başqa bir ümumi rəy isə bundan ibarətdir ki, ABŞ-da son 20 ildə ümumilikdə biznes dairələri və kişi sahibkarlar qadın həmkarlarına daha təmkinli və hörmətlə yanaşırlar.

# İqtisadiyyatda təcili tədbirlər görülür

Argentina hökuməti milli pul vahidi - pesonun dəyərdən düşməsinin iqtisadiyyatda yaratdığı çətinliklərin aradan qaldırılması üçün həyata keçirməyi planlaşdırdığı tədbirləri ictimaiyyətə açıqlamışdır. Argentinanın dövlət başçısı Maurisio Makri televiziya ilə çıxışında qeyd etmişdir ki, büdcə kəsirinin aradan qaldırılması üçün ixracata vergi tətbiq ediləcək və dövlət xərclərinin azaldılması məqsədilə nazirliklərin yarısı ixtisara salınacaq. M.Makri 30 faizə çatan inflyasiyadan zərər görən vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi naminə iqtisadi və ərzaq yardımı proqramlarının da təkmilləşdiriləcəyini nəzərə çatdırmışdır. Prezident «Arzuladığımız ölkəni qura bilmək üçün xərcləri gəlirlərindən çox olmayan taraz büdcəyə malik bir dövlətə ehtiyacımız var», - demişdir.

Qeyd edək ki, Argentinanın Mərkəzi Bankı ilin əvvəlindən bəri faizləri 60-a qədər qaldırmasına baxmayaraq, milli pul vahidinin dəyərdən düşməsinin qarşısını almaq mümkün olmamışdır. Peso yanvar-avqust ayları ərzində ABŞ dollarına nisbətdə öz dəyərinin yarısını itirmişdir.

Bu gedişatın qarşısını almaq üçün hökumət kənd təsərrüfatı məhsulları da daxil olmaqla ölkə ixracatında edilən bütün gəlirlər üçün hər dollar başına 4 peso (1 dollar=38,62 peso) ixracat vergisi tətbiq etməyə başlamışdır. Yeni vergi islahatının elan olunması vəziyyəti bir qədər də gərginləşdirmiş, peso üç faiz həddində dəyərdən düşmüşdür.

Hökumətin qərarına əsasən, ölkədən ixrac edilən kənd təsərrüfatı məhsulları üçün 4 faiz, digər məhsullar üçünsə 3 faiz dərəcəsi ilə ixracat vergisi tutulur.

# İran «Total»ın vəsaitini qaytarmaq istəmir

İran İslam Respublikası Fransanın «Total» neft-qaz şirkətinin «Cənub Pars» qaz yatağının 11-ci fazasının inkişaf etdirilməsi layihəsinə xərclədiyi vəsaiti geri qaytarmaq fikrində deyil. Bu barədə qonşu ölkənin neft naziri Bijen Namidar Zəncənə məlumat verib. B.Zəncənənin sözlərinə görə, layihə tamamlanmayanadək «Total»ın xərclədiyi məbləğ geri qaytarılmayacaq. Nazir Fransa şirkətinin İran ərazisində layihə avadanlıqlarının qalmadığını da təsdiqləyib. Qeyd edək ki, avqustda «Total» Amerika Birləşmiş Ştatlarının İran İslam Respublikasına tətbiq etdiyi sanksiyalara görə bu ölkəni tərk edib.

Çin Milli Neft-Qaz Korporasiyası (CNPC) İranın «Cənubi Pars» təbii qaz yatağının 11-ci fazasının inkişafı layihəsində «Total» neft-qaz şirkətinin yerini tutacaq. Beləliklə, layihədə 30 faizlik səhmdar olan CNPC «Total»ın bu layihədəki 50 faizlik səhmlərini də alaraq payını 80 faizə çatdıracaq. Bununla da CNPC 5 milyard dollarlıq layihənin ən böyük səhmdarı olacaq.

# Şərab üçün aksiz vergisi ləğv edilib

Yunanıstanın inzibati məhkəməsi hökumət tərəfindən şərab üçün 2016-cı ilin əvvəlindən tətbiq olunan aksiz yığımının ləğv edilməsi barədə qərar çıxarmışdır. Bu vergi yunan istehsalçıları arasında kəskin tənqid hədəfinə çevrilmişdi. Verginin dərəcəsi 0,75 litrlik şüşələr üçün 0,15 avro, 1 litrlik üçünsə 0,20 avro təşkil edir. Bu verginin tətbiq olunması lap başlanğıcdan Yunanıstan Şərab İstehsalçıları Federasiyası, Yunanıstan Üzümçülük və Şərabçılıq Milli Təşkilatı və digər nüfuzlu qurumlar tərəfindən etirazla qarşılanmışdı və məhkəmə iddiaları qaldırılmışdı. Məhkəmənin qərarına əsasən, vergi avtomatik qaydada ləğv edilir və bunun üçün digər instansiyaların əlavə qərarlarına ehtiyac yoxdur.

# Əlavə korporativ vergi tətbiq ediləcək

Fransa Konstitusiya Məhkəməsinin qərarında göstərilmişdir ki, iri şirkətlər üçün təklif edilən və bu yaxınlarda parlament tərəfindən təsdiq olunmuş müvəqqəti əlavə korporativ verginin tətbiqi ölkə Konstitusiyasına zidd deyil. Parlamentin üzvləri məhkəməyə belə bir verginin tətbiqinin, eləcə də həmin verginin özünün qanuni olub-olmadığı barədə sorğu ilə müraciət etmişdilər. Məhkəmənin qərarında isə bildirilmişdir ki, vergi nəzərdə tutulan şirkətlər üçün ayrı-seçkilik yaratmır və onun tətbiqi ölkə Konstitusiyasına uyğundur.

Qeyd edək ki, parlamentin qəbul etdiyi düzəlişə əsasən, korporativ verginin dərəcəsi illik dövriyyəsi 1 milyard avrodan artıq olan şirkətlər üçün 33,3 faizdən 38,3 faizə, illik dövriyyəsi 3 milyard avrodan artıq olan şirkətlər üçünsə 33,3 faizdən 43,3 faizə qaldırılmış olur. Müvəqqəti əlavə 31 dekabr 2017-ci ildən 30 dekabr 2018-ci ilə qədər olan dövr üçün tətbiq ediləcək.

Belə bir tədbirə əl atılması büdcəyə 5 milyard avro həcmində əlavə vəsait cəlb etmək məqsədi daşıyır. Həm xərclərin azaldılması, həm də bu vəsaitin büdcəyə daxil olması hesabına hökumət büdcə kəsirini əlavə olaraq 2,9 faiz də azaltmaq niyyətindədir.

# Barbados ziyanlı vergi rejimlərindən əl çəkməyə razılıq verib

Barbadosda üstünlük verilən iki vergi rejimi İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) BEPS ilə əlaqədar nəşr etdirdiyi əlavə tövsiyələrdə «potensial olaraq təhlükəli» kimi müəyyənləşdirilmişdir. OECD-nin təlimatı Barbadosun beynəlxalq maliyyə xidmətləri rejimini və valyuta gəlirlərindən kredit verilməsini, eləcə də xarici layihələr üçün kredit verilməsini və vergi xidmətləri rejimini müəyyənləşdirir. Təlimatda göstərilir ki, beynəlxalq bank mərkəzləri üçün bir neçə il bundan əvvəl ləğv edilmiş Kanada rejimi hissə-hissə deyil, bütövlüklə ləğv edilməlidir. Barbados OECD-nin təsdiqlədiyi iki vergi rejimi üzrə düzəliş etmək öhdəliyini qəbul etmişdir.

## krossvord



**Yuxarıdan aşağı:** 1.Gülçiçəklilər sırasından dekorativ ağac növü, daha çox Yaponiyada bitir; 2.Azərbaycanın ilk peşəkar kino xadimlərindən biri. «Arşın mal alan» (1945) filmindəki Süleyman obrazı canlandıran aktyor və rejissor, əməkdar incəsənət xadimi; 3.Qiymətli kağız üzrə təklif olunan qiymətlə tələb olunan qiymət arasındakı fərq; 4.Daş dövrünün son mərhələsi (yeni daş dövrü); 5.Füzuli rayonunda kənd adı. Azərbaycan xalqının soykökündə yer tutan türk tayfalarından birinin adından götürülüb; 6.Azərbaycanlı futbol mütəxəssisi. Keçmiş futbolçu, əməkdar məşqçi; 9.Yunanıstanın şimal-qərbində vilayət; 13.Bəstəkar, Azərbaycanın xalq artisti, məşhur mahnıların müəllifidir, bir sıra filmlərə musiqi bəstələyib; 15.XIX əsrdə yaşayıb-yaratmış görkəmli Azərbaycan şairəsi; 16.Sərnişin vaqonunda hər tərəfi bağlı olan meydança. Musiqi aləti; 17.İbtidai insanların ilk sığınacaq yerləri, yaşayış evləri; 18.İstilik qazanxanası sistemlərində su qızdırıcılarının ümumi adı; 20.Quba və Xaçmaz rayonlarının ərazisindən axaraq Xəzər dənizinə tökülən çay; 21.Müxtəlif vaxtlarda Britaniya imperiyasına daxil olan bir sira ölkələrin, o cümlədən Finlandiya və Estoniyanın xırda pul vahidi. **Soldan sağa:** 1.Karbonat sinfinə aid olan mineral (süxur); 5.Məşhur holland rəssamı. Postimpressionizm cərəyanının nümayəndəsi; 7.Çalğı alətlərini, habelə xor oxuyarkən səsindən əsas ton kimi istifadə edilən, bərk cismə toxundurulduqda müəyyən yüksəklikdə səs çıxaran kiçik polad alət; 8.Gürcüstanda yaşayan müsəlman etnik qrup; 10.İri ticarət mərkəzinin adı; 11.Türkiyədə şəhər; 12.Qədim yunan şairi. Monodik melikanın ən görkəmli nümayəndələrindən biri; 14.Xüsusi, ayrıca buraxılış üzrə yerləşdirilən qiymətli kağızlar, istiqrazlar seriyası; 19.«Mən mahnı qoşuram» filmində (1979) Sonanın anasının obrazını oynayan aktrisanın adı; 21.Yaşayış binasının daxili həyəti; 22.Rusiyada çay; 23.Xalq şənliyinin bir növü; 24.Panama kanalında iri ada; 25.Həmişə bir yerdə olan, yerini dəyişməyən, bir yerdən başqa yerə köçməyən idarə, müəssisə, əşya və s.



*Holland rəssamının məşhur «Ulduzlu gecə»si. 1889.*

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Qlasse; 2.Taburet; 3.Enniy *(Kvint)*; 4.Toyota; 5.Kabul; 6.Vurğun; 9.İkta; 13.Yula; 15.Aristid; 16.Astar; 17.Sement; 18.Bəxşiş; 20.Mirzə *(Babayev)*; 21.Avizo. **Soldan sağa:** 1.Qottentot; 5.KİV; 7.Albaniya; 8.Abar; 10.Saray; 11.Tokelau; 12.Ütöya; 14.Baran; 19.Somelye; 21.Aliyə; 22.Ağrı; 23.Beşiktaş; 24.Ayə; 25.Patrondaş.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi:
Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor:
Anar Əliyev
anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini:
Məti Osmanoğlu
redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan:
AZ 1141, Bakı ş.,
Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon:
012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

## idman

# Badmintonçularımız beynəlxalq turnirdə yüksək nəticə göstəriblər

Azərbaycan badmintonçuları Minskdə keçirilən «Belarus International-2018» turnirində uğurla çıxış ediblər. Turnirə əsas mərhələdən qatılan badmintonçumuz Edi Reski Dviçayo kişilərin şəxsi yarışında finala gedən yolda Qazaxıstan, Finlandiya, Hindistan və Polşa təmsilçilərinə qalib gəlib. Finalda fransalı Leo Rossini 2:1 hesabı ilə məğlub edən idmançımız turnirin qalibi adını qazanıb.




Kişilərin qoşa yarışında da Azərbaycan badmintonçuları fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Edi Reski Dviçayo - Ezmi Qovimuramadhoni cütü final yolunda İsrail, Ukrayna və Polşadan olan həmkarlarını məğlub ediblər. Təmsilçilərimiz həlledici görüşdə Fransa badmintonçuları Leo Rossi-Tomas Baures üzərində də inamlı qələbə qazanıblar - 2:0.

Qeyd edək ki, ölkəmizi təmsil edən hər iki badmintonçu «Sabah» peşəkar idman klubunun üzvləridir.

# Azərbaycan yığması Maltanı da büdrədə bilmədi

Sentyabrın 10-da futbol üzrə Azərbaycan milli komandası UEFA Millətlər Liqasının qrup mərhələsində növbəti oyununu keçirib. Yığmamız səfərdə Malta seçməsi ilə qarşılaşıb.

Yığmamızın start heyətində Kamran Ağayev, Qara Qarayev, Pavel Paşayev, Maksim Medvedev, Mahir Mədətov, Emin Mahmudov, Rauf Əliyev, Dmitri Nazarov, Riçard Almeyda, Təmkin Xəlilzadə və Bədavi Hüseynov yer alıblar.

Monteneqrolu baş hakim Nikola Dabanoviçin idarə etdiyi oyuna meydan sahibləri daha fəal başlayıblar. Bədavi Hüseynovun kobud oyununa görə matçın 10-cu dəqiqəsində millimizin qapısına təyin olunmuş on bir metrlik cərimə zərbəsini Andrey Aqius dəqiq yerinə yetirərək hesabı açıb. Görüşün 25-ci dəqiqəsində millimiz hesabı bərabərləşdirməyə yaxın olsa da, Mahir Mədətovun zərbəsi qapı tirindən geri qayıdıb. Bir dəqiqə sonra isə komandamız istəyinə nail olub: Təmkin Xəlilzadə baxımlı qola imza atıb. Futbolçuların cəhdlərinə baxmayaraq, ilk hissəsinin sonunadək hesab dəyişməyib.

Oyunun ikinci hissəsi Azərbaycan yığmasının üstünlüyü şəraitində keçsə də, bütün komanda ilə müdafiə olunan Malta millisini məyus etmək mümkün olmayıb. Beləliklə, qarşılaşma 1:1 hesablı heç-heçə ilə başa çatıb.

Qrupun digər oyununda isə Kosovo millisi doğma meydanda Farer adaları yığmasını qəbul edib. Görüş Kosovonun 2:0 hesablı qələbəsi ilə yekunlaşıb. Beləliklə, qrupda Kosovo 4 xalla birinci, Farer adaları 3 xalla ikinci, Azərbaycan isə 2 xalla üçüncü pillədə qərarlaşıb. Malta millisi 1 xalla sonuncu - dördüncü yerdədir.




Xatırladaq ki, qrup mərhələsinin ilk oyununda Azərbaycan millisi Bakı Olimpiya Stadionunda Kosovo yığmasını qəbul edib və qarşılaşmada hesab açılmayıb. Millimiz növbəti oyununu oktyabrın 11-də səfərdə Farer adalarına qarşı keçirəcək.

# Azərbaycan damaçısı dünya çempionudur

Polşanın Mlava şəhərində xüsusi qrup insanlar arasında keçirilən 64 xanalı dama üzrə dünya çempionatına yekun vurulub. Yarışlarda ölkəmizi təmsil edən Pərviz Həsənov dünya çempionu tituluna sahib olub.

Azərbaycan və Avropa çempionu, «Neftçi İdman Klubu»nun təmsilçisi, beynəlxalq usta P.Həsənov çempionatda əzmkarlıq nümayiş etdirərək əla nəticə göstərib. İdmançımız İsveçrə sistemi üzrə keçirilən mötəbər turnirdə 7 tura 13 xal toplayaraq (6 qələbə, 1 heç-heçə) karyerasında ilk dəfə olaraq dünya çempionatının qızıl medalına layiq görülüb.

# Xanım qrossmeysterimiz beynəlxalq turnirdə...

Rusiya Federasiyasının Tatarıstan Respublikasının paytaxtı Kazan şəhərində sürətli şahmat üzrə ənənəvi beynəlxalq turnirə - Rəşid Nəcməddinov Kubokuna start verilir. Artıq sayca 40-cı dəfə keçirilən turnirə 79 şahmatçı, o cümlədən 31 qrossmeyster qatılacaq. Start siyahısında ilk yerləri rusiyalılar - Aleksandr Raxmanov (2706), Maksim Çiqayev (2678) və Dmitri Kokarev (2663) tutur. Mötəbər yarışda Azərbaycan şahmatının şərəfini qrossmeysterimiz Türkan Məmmədyarova (2375) qoruyacaq.

Digər adı «Rusiya Rapid Qran-Prisi» mərhələsi olan bu turnirin qalibləri sentyabrın 21-də müəyyən ediləcək. Yarışlar İsveçrə sistemi üzrə 11 turdan ibarət olacaq. Oyunlarda nəzarət vaxtı 15 dəqiqə üstəgəl birinci gedişdən başlayaraq hər gediş üçün 10 saniyə müəyyən edilib. Turnirin ümumi mükafat fondu 450.000 rubla (təxminən 11 min 300 manat) bərabərdir.

# Himnimiz Polşada səsləndirildi

Polşa Respublikasının paytaxtı Varşava şəhərində güləş üzrə «Qran-pri» seriyasından olan «Poland Open» turniri başa çatıb. Azərbaycan Güləş Federasiyasının yaydığı məlumata əsasən, yarışda ölkəmizi təmsil edən qadınlardan ibarət yığmamızın lideri Mariya Stadnik (50 kq) həlledici görüşdə ötən il Avropa çempionatının finalında məğlub etdiyi (10:0) Ukrayna idmançısı İlyona Semkivlə qarşılaşıb. Finaladək bütün görüşlərində asan qələbə qazanan M.Stadnik sonuncu qarşılaşmada da rəqibinə qalib gəlib - 13:2. Beləliklə, dünya səviyyəli idmançımız daha bir mötəbər turnirdə fəxri kürsünün ən yüksək pilləsinə qalxaraq, Azərbaycanın dövlət himninin səsləndirilməsinə nail olub.



## mozaika

### cəmiyyət

# Mourinyo vergidən yayındığını etiraf edib

Son vaxtlar İspaniyanın hüquq-mühafizə orqanları vergi qaçaqlığına qarşı sərt mübarizə tədbirləri ilə radikal addımlar atırlar. Bir neçə ay bundan əvvəl Madridin «Real» futbol klubunun keçmiş hücumçusu Kriştianu Ronalduya iki il şərti həbs cəzası və 18 milyon avro pul cəriməsi verilməsi böyük sensasiyalardan biri kimi qarşılanmışdı. Ondan başqa, Lionel Messi və Xavier Masxeranu da vergi qaçaqlığına görə məsuliyyətə cəlb edilmişdi.



İndi isə daha bir məşhur sima ilə bağlı vergi qalmaqalı gündəliyə gətirilmişdir. Müasir dünyanın ən böyük futbol mütəxəssislərindən olan Joze Mourinyo Madridin «Real» klubunda baş məşqçi işlədiyi zaman 3,3 milyona yaxın avro məbləğində gəliri vergidən yayındırmaqda ittiham edilir. Beynəlxaq KİV-də yayılan xəbərlərə görə, o, İspaniya Dövlət Xəzinədarlığı ilə bağladığı saziş əsasında da bir il şərti həbs cəzası almağa razı olmuşdur. Həmin sazişə əsasən, Mourinyo 2011-ci və 2012-ci illərdə imic haqlarını istifadə etməkdən əldə etdiyi və Britaniyanın Qəraib dənizində yerləşən Virciniya adalarında təsis edilmiş bir şirkətdən aldığı pulu İspaniyanın dövlət xəzinəsindən gizlətdiyini yazılı şəkildə etiraf edəcək.

Məşqçinin 3,3 milyon dollara çatan gəlirlərini Britaniyanın Virciniya adaları ilə yanaşı, İrlandiya və Yeni Zelandiya offşor şirkətlərində gizlətdiyi bildirilir. Bu vergi cinayətinin qarşılığı olaraq, ona bir il müddətinə şərti həbs cəzası veriləcək. Bundan əlavə, Joze Mourinyo xəzinədən gizlətdiyi məbləğin 60 faizi - təxminən 1,9 milyon avro məbləğində pul cəriməsi ödəyəcək. Xəzinədarlıq ilə saziş əsasında o, məhkəmə qarşısına çıxmayacaq. Məhkəmə İspaniya xəzinəsi ilə Mourinyonun vəkilləri arasında əldə edilmiş razılaşma ilə bağlı məlumatlandırılacaq.

Qeyd edək ki, 55 yaşlı portuqaliyalı mütəxəssis 2016-cı ildən İngiltərənin «Mançester Yunayted» futbol komandasının baş məşqçisidir.

### mədəniyyət

# Görkəmli bəstəkarımız fransızların təqdimatında...

Fransanın «Francemusique» radiostansiyasının klassik musiqiyə həsr edilmiş verilişində görkəmli Azərbaycan bəstəkarı Qara Qarayevdən danışılıb. Proqramda Q. Qarayevin həyat və yaradıcılığı haqqında ətraflı məlumat verilərək, onun əsərləri səsləndirilib.




Parisdə keçirilən Yevgeni Svetlanov adına IV dirijorlar müsabiqəsinin bədii direktoru Röne Körinq verilişdə Qara Qarayevin musiqi aləminə töhfələrindən söz açaraq bildirib ki, hər bir skripkaçı Qara Qarayevin «Skripka ilə orkestr üçün konsert» əsərini ifa etməlidir. Bu əsər şedevrdir. Onun sözlərinə görə, məşhur rus dirijoru E. Svetlanov bütün konsert proqramlarına Q.Qarayevin əsərlərini daxil etmişdir. Verilişdə Q. Qarayevin «Skripka ilə orkestr üçün konsert» əsəri, «Yeddi gözəl», «İldırımlı yollarla» baletlərindən və digər əsərlərindən parçalar dinləyicilərə təqdim olunub.

Fransanın mezzo.tv kanalında da görkəmli bəstəkarımız haqqında veriliş yayımlanıb, əsərlərindən parçalar səsləndirilib. Fransa radio və televiziyasında Qara Qarayevə həsr edilmiş verilişlər Fransadakı səfirliyimizin, AZƏRTAC-ın və Fransa-Azərbaycan Dialoqu Assosiasiyasının birgə əməkdaşlığı çərçivəsində həyata keçirilib.

### xəbərdarlıq

# İnternetdə qlobal problem gözlənilir

Oktyabrın 11-də dünya üzrə internet istifadəçiləri şəbəkəyə giriş problemi ilə üzləşə bilərlər. Bu haqda domen adları və IP ünvanlarının idarə edilməsi üzrə korporasiya (ICANN) məlumat verib. Həmin gün tarixdə ilk dəfə domen adları sisteminin təhlükəsizliyini qoruyan kriptoqrafiya açarlarının dəyişdirilməsi planlaşdırılıb. Yeniləmədən sonra 48 saat ərzində bəzi istifadəçilərin ayrı-ayrı resurslara daxil olmaqda çətinliklə üzləşmə ehtimalı var. Sistem «server failure» və ya «servfail» səhvini göstərə bilər.

### şəbəkə

# Texnologiya şirkətləri məlumatlar mübadiləsinə başlayıblar




«Facebook», «Twitter», «Google» və «Microsoft» şirkətləri «Data Transfer Project» (DTP) layihəsinə başlayıblar. Layihə çərçivəsində məlumatlar (fotoşəkil, elektron məktub, kontakt, təqvim) bir servisdən digərinə köçürüləcək.

Layihə bu il mayın 25-də Avropa İttifaqında qüvvəyə minən fərdi məlumatların mühafizəsi qaydalarına (General Data Privacy Regulations - GDPR) uyğun yaradılıb. Hazırda layihə hazırlanma mərhələsindədir. Məlumatların köçürülməsi üçün istifadəçi «API» açarını (əlavə proqram interfeysi) bilməlidir.

Qeyd edək ki, «GDPR» şirkətlər tərəfindən istifadəçilər üçün fərdi məlumatların mühafizəsi funksiyalarının quraşdırılmasını nəzərdə tutur.

Məsələn, istifadəçilərə fərdi məlumatları tam ləğv etmək hüququ verilir, eləcə də 16 yaşdan aşağı şəxslərin fərdi məlumatlardan istifadəsi üçün onların valideynlərinin və ya qəyyumlarının icazəsi tələb olunur. Reqlament tələbləri nəzərə alınmadıqda şirkətlər 20 milyon avro və ya illik dövriyyənin dörd faizi məbləğində cərimə oluna bilər.

### texnologiya

# Süni elektron dəri

Çin alimləri çox nazik, elastik və keçiricilik qabiliyyətinə malik maddə olan qrafen əsasında rəngli süni elektron dəri hazırlayıblar. Dəri sağlamlıq vəziyyətinin monitorinqi üçün daşınan elektron qurğu kimi işləyə bilir.



«E-skin» adlı elektron dərinin hazırlanmasında insan dərisinə bənzəyən və təzyiq, temperatur və dartılmanı hiss edə bilən elastik elektron materialdan istifadə olunub. Suyun köməyi ilə elektron dəri yalnız insan bədəninə deyil, həm də yarpaq və ipək kimi obyektlərə köçürülə bilər.

Elektron dərini insan dərisinə, həmçinin tənəffüs, ürək döyüntüsü və səs daxil olmaqla, bədən siqnallarının ölçülməsi üçün boğaza bərkitmək olar. Yüksək həssaslığa malik olan elektron dəri yüksək temperatura davam gətirir və daşımaq üçün olduqca rahatdır.

Alimlər elektron dərinin səhiyyə və süni intellekt sahələrində tətbiq üçün böyük imkanlara malik olduğuna əmindirlər.

**Müdriklər deyib ki...**



***«Nikbin insan yaranın üstündəki qaysağı, bədbin insan qaysağın altındakı yaranı görər».***

***Ernst Şröder (1841-1902)***